

## "Enerji təhlükəsizliyi artan nüfuzumuzun göstəricisidir"

5

Səs
№ 024 (6465) 9 fevral 2022-ci il. Qiymәti 60 qәpik

## Prezident İlham Əliyev yenidən qurulan 330 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib



2

## Geri qaytarılan erməni hərbçilərini nə gözləyir?





7

## "Heydər Əliyev mənə dedi ki, Zərifə..."

Azərbaycanın ictimai xadimi, Miniatür Muzeyinin təsisçisi və rəhbəri Zərifə Salahova SİA-ya müsahibə verib. Həmin müsahibəni sizə təqdim edirik.



6

## Pensiya alanlara əlavə pul veriləcək





## Artan ailədaxili cinayətlər - Problemin kökündə nə dayanır?

8

## Zidan Ronaldonu da PSJ-yə aparır



"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo PSJ-də Zinəddin Zidanla yenidən bir araya gələ bilər. Bu barədə "Marca" nəşri...

16



## Təhsil kreditini kimlər ala bilər?

6

"Tələbə təhsil kreditini yalnız sosial həssas qrupa aid olan ailələr ala bilər. Bir də standart kredit növü var ki, bunu da...



## Sosial sahədə islahatlar öz bəhrəsini verir

11

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının...

# Prezident İlham Əliyev yenidən qurulan 330 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Rusiya-Azərbaycan enerji sistemlərini əlaqələndirərək, dövlətlərarası qovşaq yarımstansiyası funksiyasını daşıyan "Yaşma" yarımstansiyası ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə tikilib. Yarımstansiya dənizə yaxın, nəmişlik ərazidə yerləşdiyi üçün dəmir-beton və metal-konstruksiyaların aşınması, həmçinin uzunmüddətli istismar nəticəsində avadanlığın köhnəlməsi, izolyasiya parametrlərinin pisləşməsi tez-tez qısaqapanma hadisəsinin baş verməsinə səbəb olurdu. Bundan əlavə, sistem qəzalarının başvermə ehtimalı və sürətlə artan tələbatı ödəyə bilməməsi ilə əlaqədar yarımstansiya Prezident İlham Əliyevin tapşırığı ilə rəqəmsal qaydada tam yenidən qurulub. Spesifik sahə olduğundan yenidənqurma işləri yerli mütəxəssislər tərəfindən növbətçilik əsasında, elektrik gərginliyi saxlanılmaqla aparıldığı üçün yarımstansiyanın fəaliyyətində fasilə yaranmayıb.





"Sumqayıt", "Qobu", "Xaçmaz" elektrik stansiyaları ilə birbaşa, "Azərbaycan" İstilik Elektrik Stansiyası və "Cənub" Elektrik Stansiyası ilə isə "Abşeron" yarımstansiyası vasitəsilə əlaqələndirildiyindən çox mühüm strateji funksiyanı üzərinə götürən "Yaşma" qovşaq yarımstansiyasının "Qobu" Enerji Qovşağına, bu ilin yanvarında əsası qoyulan "Xızı-Abşeron" Külək Elektrik Stansiyası və tikintisinə başlanılacaq yeni "Yaşma" Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyasının həyata keçirilməsi üçün yeni yuvalar quraşdırılıb. Şimal-şərq rayonlarının və Abşeron yarımadasının enerji təchizatında müstəsna əhəmiyyət kəsb edən "Yaşma" yarımstansiyasında 330, 220 və 110 kilovoltluq açıq paylayıcı qurğular sökülərək genişləndirilmiş formada yenidən qurulub. Burada hər birinin gücü 250 meqavat olan üç yeni avtotransformator quraşdırılıb. Nəticədə yarımstansiyanın ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılıb. "Qobu" Elektrik Stansiyasından "Yaşma" yarımstansiyasına 47 kilometr məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilib.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, enerji sistemində ilk dəfə məhz bu yarımstansiyada respublikanın şimal-şərq rayonlarının və Abşeron yarımadasının reaktiv gücünü kompensasiya edə biləcək şuntlayıcı reaktor quraşdırılıb. 120 MVAr gücündə idarəolunan şuntlayıcı reaktor 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək, xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər, texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaq.

Yarımstansiyanın ərazisində yeni idarəetmə mərkəzi tikilib. Burada yeni əks-qəza avtomatikası sistemi yaradılıb, yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistem mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq, yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, açılıb-qoşulma əməliyyatları proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Bakı-Quba magistral yolundan yarımstansiyaya qədər dörd kilometr məsafədə yol təmir edilib, bir kilometr məsafədə yeni yol çəkilib və daxili yollar salınıb.

Sistem əhəmiyyətli 330/220/110/10 kilovoltluq "Yaşma" yarımstansiyasının əsaslı yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, dövlətlərarası və ölkədaxili elektrik təchizatının etibarlığının və dayanıqlılığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir texnologiyaların tətbiqinə nail olunub. Ən müasir idarəetmə, rele mühafizəsi və avtomatika dövrələrinin quraşdırılması avadanlıqların imtinası və zədələnməsinin qarşısının alınmasını, mühafizələrin cəld, selektiv, etibarlı işini və operativ əməliyyatların çevikliyini təmin edəcək.










## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə Fərman imzalayıb.

# İLHAM ƏLİYEV:

## "Hər bir insan, xüsusilə, gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir"

"Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər". Bunu Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda sualları cavablandıran Prezident İlham Əliyev deyib. "Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq eyni zamanda, hər bir insan, xüsusilə, gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi bu gün biz deyə bilərik, elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər. Çünki istənilən sahəyə baxdıqda görürük ki, doğrudan da böyük tarixi nailiyyətlərə imza atmışıq. Əlbəttə, problemlər də var, çatışmazlıqlar da var. Bu çatışmazlıqlarla mübarizə aparırıq və aparacağıq. Amma əgər ümumiyyətlə bu tarix kəsiyində bu dövrü təhlil etsək görərik ki, biz tarixi nailiyyətlərə imza atdıq", - deyə dövlətimizin başçısı qeyd edib.



### "MÜSTƏQİLLİYİMİZİN 30 İLLİYİNİ KEÇƏN İL QEYD ETMİŞ ÖLKƏ KİMİ BU GÜN HƏR BİR VƏTƏNDAŞ BU ÖLKƏ İLƏ FƏXR EDƏ BİLƏR"

Bəli, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə 44 gün davam edən İkinci Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Qələbə Azərbaycanı qalib ölkəyə çevirməklə uzun illər çəkdiyimiz məğlubiyyət acısına son qoydu, xalqımızın öz yurdunu və müstəqilliyini qorumağa, azad yaşamağa qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Döyüş meydanında, diplomatiyada, informasiya müharibəsində birlik və həmrəylik göstərən Azərbaycan xalqı Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə öz tarixi missiyasını şərəflə yerinə yetirərək işğal olunmuş torpaqları düşməndən azad etdi. Dağlıq Qarabağ öz əzəli xalqına geri qaytarıldı. Prezident İlham Əliyevin 18 il ərzində qətiyyətli və düşünülmüş şəkildə yürütdüyü siyasət öz bəhrəsini verdi və bu günlər hamımız mübarək zəfərin bir illik təntənəsini yaşayır, bütövlüyümüzün və birliyimizin sevincini bölüşürük. Böyük fəxarət və qürur hissi ilə qeyd edirik ki, haqq savaşımızda Azərbaycan regionda yeni siyasi reallığın müəllifi kimi bir daha sübut etdi ki, ölkəmizlə heç zaman güc dilində danışmaq, ona hansısa şərtləri diqtə etmək qeyri-mümkündür. Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi: "Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir". Bu, həm də qalib Azərbaycanın qüdrətli Liderinin - yenilməz Sərkərdə və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər yürüşünün davam etdiyini, Böyük Qayıdışın qısa müddət və yüksək səviyyədə təmin olunacağını bir daha dünyaya nümayiş etdirdi. Bu qələbədə Azərbaycan gəncləri böyük şücaət və qəhrəmanlıq göstərdi. Daim Azərbaycan gənclərinin yanında olan Prezident İlham Əliyev fevralın 2-də gənclərlə görüşündə də bildirib ki, elə bir gənc nəsil yetişdi ki, Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər: "Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq, eyni zamanda, hər bir insan, xüsusilə, gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi bu gün biz deyə bilərik, elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər".







### "MÜHARİBƏDƏ İŞTİRAK ETMİŞ VƏ QƏHRƏMANLIQ GÖSTƏRMİŞ GƏNCLƏR ÖZ ƏMƏLLƏRİ İLƏ YENİ YETİŞƏN NƏSİL ÜÇÜN DƏ NÜMUNƏ OLMALIDIRLAR"

Dövlət başçısı onu da bildirib ki, müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş gənclər öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olmalıdırlar: "Bu gün bizim qəhrəman gənclərimiz - dövlət tərəfindən yüksək orden, medallara təltif edilmiş gənclərimiz gənc yaşlarında uşaqlar üçün nümunə olublar, 18, 20, 25, 30, 35 yaşında nümunə olublar. Onlar bu məsuliyyəti dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, onlar kimi olmaq istəsinlər. Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar".

Bütün bunlara görə bu şərəfli tarixi bizə qürurla qeyd etməyi nəsib edən canlarından, qanlarından keçən minlərlə şəhid vətən oğullarımıza Allahdan rəhmət, qaziərimizə sağlamlıqlarına tam qovuşmağı diləyirik, Vətən müharibəsi iştirakçılarına sonsuz təşəkkürümüzü bildiririk. Onlar erməni vandallarının daşı daş üstünə çevirdiyi topağı öz qanları ilə qarışdıraraq VƏTƏN etdilər. Üç minə yaxın şəhid övladlarımız "vətən eşqi" məktəbində can verməyi öyrəndilər və bizə öyrətdilər ki, ruh bədəndən ayrı mövcud olmadığı kimi Qarabağsız Azərbaycan heçdir. Yaralanmış qartalın qanadını sağaltmaq və vətənin bir parça hissəsini zalımların əlindən qurtarmaqla vətən torpağında pay olmadığını sübut etmək üçün silaha sarılıb çıxış yolumuzun ya birdəfəlik azad olmaq, ya da tamamilə yanmaqdan keçdiyini və sonra yalnız Azadlığın can Azərbaycanın yaralarına məlhəm olduğunu canları, qanları hesabına təmin etdilər. Bütövlükdə, bu gün qalib və qüdrətli Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru əmin addımlarla irəliləyir. Və 2022-ci il "Şuşa ili" isə ölkəmiz üçün siyasi, iqtisadi, ictimai və mədəni sahələrdə, eləcə də diplomatiya müstəvisində mühüm - yeni və daha möhtəşəm uğurlar vəd edir və hər bir azərbaycanlı Qalib Liderimizin dediyi kimi: "Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər".

Çünki Qalib ölkənin qürurlu vətəndaşı olaraq Qalib Liderimizin yaratdığı Azərbaycanımızla, Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!la qürurlanırıq.

**RƏFİQƏ HÜSEYNOVA**

# Avropa İttifaqı - Azərbaycan
## münasibətləri yeni mərhələyə qədəm qoyur

Fevralın 4-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə aparılmış Azərbaycanın Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilmişdir. Tədbirdən sonra Avropa İttifaqının (Aİ) genişlənmə və qonşuluq üzrə komissarı Oliver Varhelyi iqtisadi sərmayə planı çərçivəsində Azərbaycana 2 milyard avroluq maliyyə paketinin ayrılması barədə bəyanatla çıxış etmişdir. Bu, postmüharibə dövründə nəinki ölkə ictimaiyyətinin diqqətini cəlb edən, hətta beynəlxalq miqyasda geniş əks-səda doğuran ən əhəmiyyətli siyasi hadisələrdən biridir.

Ayrılan vəsaitin xalqın faydalana biləcəyi konkret layihələrə, məsələn, suyun təmizlənməsi, yaşıl enerji, bərpa olunan energetika, kommunikasiyalar, kiçik və orta biznesə, habelə tədqiqat və demokratik institutların inkişafına dəstək kimi sahələrə yönəldilməsi nəzərdə tutulur.

Önəmli siyasi çalara malik bu hadisəyə yönəlmiş böyük marağın səbəbləri müxtəlifdir. Bildiyiniz kimi, ötən il Ermənistanla müqayisədə Azərbaycana daha az həcmli maliyyə paketinin ayrılması rəsmi Bakının tənqidinə tuş gəlmişdi. Belə ki, Cənubi Qafqaza səfər edən Aİ Şurasının Prezidenti Charles Michel Ermənistandakı "prioritet proqramlar" üçün 2,6 milyard avro dəyərində maliyyə paketinin ayrılacağını elan etmişdi. O zaman Azərbaycan Prezidenti Ermənistanla müqayisədə Azərbaycana daha az vəsaitin -150 milyon avro ayrılmasından narazılığını ifadə etmişdi: "Azərbaycana gəldikdə, 150 milyon avro rəqəmi səsləndirildi, amma konkret bizə deyilmədi bu, nə rəqəmdir və nə vaxt veriləcək, verilməyəcək, bunun şərtləri nədir? Əlbəttə, mən hesab edirəm ki, bu, ədalətsiz mövqedir," - deyə cənab İlham Əliyev Aİ qərarına münasibətini səsləndirmişdi. Ona görə də yeni maliyyə paketini Bakının iradına bir cavab kimi də qiymətləndirmək olar.

Siyasi texnoloqlar hesab edirlər ki, maliyyə yardımının ayrılması ilə bağlı qərar Azərbaycanla Aİ arasında nəzərdə tutulan ikitərəfli sazişin imzalanması prosesini sürətləndirə, eyni zamanda Avropanın yeni qaz mənbələrinə çıxış əldə etmək niyyətini daha tez gerçəkləşdirə bilər.

Azərbaycanla Aİ arasında mövcud olan tərəfdaşlıq münasibətləri bütövlükdə Cənubi Qafqazın geosiyasi gələcəyi üçün çox əhəmiyyətlidir. Lakin, düşünürəm ki, Aİ- Azərbaycan əlaqələrinin qısa xülasəsini araşdırmadan postmüharibə dövründə bu xüsusda baş verən hadisələri obyektiv şəkildə dəyərləndirmək çətin olar. Keçən əsrin 90-cı illərindən başlayan bu münasibətlərin dinamikası isə zaman-zaman fərqli olub.

1990-cı illərin əvvəllərində Qərblə sıx əlaqələr qurmağa qərar verən Bakı 1996-cı ildə Aİ ilə Tərəfdaşlıq və Əməkdaşlıq sazişinə imza atıb. Bu sənəd siyasi dialoq, ticarət, sərmayə, qanunvericilik, elm və mədiyyət sahəsində əməkdaşlığı əhatə edir. "Şərq Tərəfdaşlığı" Avropa İttifaqının altı qonşu ölkəsini əhatə edir. Bura Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Belarus və Ermənistan daxildir. Bu ölkələrdən Gürcüstan, Moldova və Ukrayna qurumla assosiasiya sazişi imzalayıb.2017-ci ilin noyabrında qurumla Ermənistan arasında tərəfdaşlıq sazişi imzalanıb. Azərbaycan isə uzun müddətdir ki, bloklara meylli olmadığını nümayiş etdirdiyinə görə Moldova, Ukrayna və Gürcüstandan fərqli olaraq, Aİ ilə Assosiyasiya sazişindən imtina edib ikitərəfli sazişlərə üstünlük verir.



**Əli Hüseynli**
**Milli Məclisin deputatı**

25 yanvar 2001-ci ildə rəsmən Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul edilmiş Azərbaycan 2004-cü ildə Azərbaycan Aİ-nin Avropa Qonşuluq Siyasətinə, 2009-cu ildə isə onun Şərq istiqaməti üzrə çoxtərəfli əməkdaşlıq formatı olan Şərq Tərəfdaşlığı proqramına daxil edilib. 2011-ci ilin yanvarında isə Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə imzalanıb.

Dünya qlobal siyasətinin mahir bilicilərindən olan Ulu öndər Heydər Əliyev, ümumiyyətlə, ölkəmizin bütün beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı ilə əlaqələrində heç vaxt şaquli yanaşmaların yer almasına imkan verməmiş və yalnız xalqın maraqlarına xidmət edən və qarşılıqlı faydaya əsaslanan üfüqi münasibətlər siyasətinə üştünlük vermişdir. Bu siyasətin əsası hələ o dönəmdə qoyulub. Mahiyyət isə ondan ibarətdir ki, biz nə qədər Avropaya lazımıqsa, bir o qədər də Avropa bizə lazımdır. Belə ki, biz bütün dünyaya açıq şəkildə bəyan etmişik ki, milli dəyərlərimizə zidd olan və ədalətsiz münasibətlərdən doğan addımlara qarşı ciddi mövqedə durmaq şərtilə Azərbaycan Avropa ailəsinin bərabərhüquqlu üzvü olmaq siyasəti götürmüşük və bu istiqamətdə addımlarımızı davam etdiririk. Ötən ilin mart ayında YAP-nın VII Qurultayında partiya aktivi qarşısında çıxış edən cənab İlham Əliyev Avropa ilə daha sıx yaxınlaşmanı nəzərdə tutan əvvəlki sazişi "təlimat kitabçası" adlandırıb: "Dedim ki, bizə belə təlimat lazım deyil. Biz özümüz bilirik nə etmək lazımdır. Bu gün biz Avropa İttifaqı ilə bərabərhüquqlu saziş üzərində işləyirik və sazişin 90 faizi razılaşdırılıb".

Azərbaycan və Avropa arasında son illərdə ən çətin münasibətlər 2015-ci ildə mövcud olub. Buna səbəb illər uzunu Avropa İttifaqının Azərbaycana qarşı ikili standart mövqeyindən çıxış etməsi, ölkəmizə "yuxarıdan aşağı" baxması, tələblərinin diktə etməyə çalışması, Ermənistanın işğal siyasətinə açıq-aşkar göz yumması və bu qəbildən olan digər məsələlər səbəb olmuşdur. 2015-ci il sentyabrın 10-da Avropa Parlamentinin Azərbaycandakı insan hüquqlarının vəziyyəti ilə bağlı qərəzli qətnamə qəbul etməsi Azərbaycan rəhbərliyinin və ictimaiyyətinin kəskin etirazı ilə qarşılaşıb. Rəsmi Bakı qətnaməni "ədalətsiz və qeyri-obyektiv" adlandıraraq Avropa Parlamenti ilə münasibətlərini kəsib. Milli Məclis Euronest Parlament Assambleyasında iştirakının dayandırılması prosedurlarına başlamaq haqqında qərar qəbul edib. Münasibətlər bir il sonra, Milli Məclisin "Avropa Parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında əməkdaşlıq məsələləri haqqında" qərar qəbul etməsindən sonra yumşalıb.

Avropa İttifaqı 2015-ci ildə qonşuluq siyasətinə düzəlişlər etməklə, faktiki olaraq, Azərbaycanın təklif etdiyi istiqamətlər üzrə əməkdaşlıq xəttinə keçib. Bununla Azərbaycan Rusiya ilə yanaşı, postsovet məkanında Aİ ilə bərabərhüquqlu tərəfdaş statusuna yüksəlmiş dövlət oldu. Bu vəziyyət "Şərq Tərəfdaşlığına" daxil olan digər ölkələrin yürütdüyü siyasətə də öz təsirini göstərir.

Bu gün Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq ölkənin xarici siyasətinin əsas prioritetlərindəndir. Belə ki, onun xarici ticarət dövriyyəsinin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. 17 ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Bu gün isə biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz edirik. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı olmuş və onu maliyyələşdirmişdir. Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb.

2017-ci ildən bəri Bakı və Brüssel strateji əməkdaşlıq sazişini müzakirə edirlər. İndiyədək saziş əsasən hazır olsa da, son vaxtlaradək həllini tapmamış bəzi məsələlərə görə danışıqlar ləngiyirdi. Bu gün isə biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik.

44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yaeni reallıqlar, Azərbaycanın qüdrəli dövlət kimi beynəlxalq nüfuzunun sürətlə artması fonunda Aİ bu münasibətlərə yeni rakursdan baxmağa məcbur oldu və bu münasibətlər yeni mərhələyə qədəm qoydu. Əvvəlki dövrlərdə Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramına daxil olan ölkələrin maraqlarını nəzərə almağa həvəsli deyildi. Azərbaycanın müstəqil davranışları və xüsusən İkinci Qarabağ müharibəsindəki qələbəsi Brüsseli mövqeyinə yenidən baxmağa məcbur etdi. İndi isə Cənubi Qafqaza vəd edilən geniş maliyyə dəstəyi Aİ-nin bölgə sabitliyində maraqlı olduğunu və Azərbaycanla Ermənistan arasında davamlı sülhün bərqərar olmasına yardım etməyə hazır olduğunu göstərir. Yeganə Şərq Tərəfdaşlığı ölkəsi olaraq rəsmi Bakının Aİ ilə enerji təhlükəsizliyinə dair ayrıca sənəd imzalaması Azərbaycanın Avropa ilə münasibətlərdə xüsusi rola malik olmasına dəlalət edir.

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki parlaq qələbəsi həm də Aİ-ni regiona münasibətini dəyişməyə sövq etdi. Brüssel yeni yaranmış geosiyasi mənzərəyə nüfuz etmək üçün daha fəal olmaq xəttini seçməklə yanaşı, regionda artıq Rusiya və Türkiyənin aparıcı rol oynaması ilə barışmaq zorundadır. Bu baxımdan Aİ-nin siyasətindəki çoxşaxəli siyasi vektor dəyişikliyini həm də İkinci Qarabağ müharibəsindən sonra bölgədə aparıcı rollara sahib Ankara və Moskvanın mövqelərini "tarazlaşdırmaq üçün" Cənubi Qafqazda daha geniş təmsil olunmaq cəhdi kimi də dəyərləndirmək olar. Hazırda Aİ Cənubi Qafqaz istiqamətində siyasətində vurğulanan şərtlər çərçivəsində daha böyük səmərə əldə etmək uğrunda çalışır.

Yeni, daha mütərəqqi və səmimi münasibətlərin formalaşması həm də ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu işinin davam etdirilməsi, qazanılmış müstəqilliyin təsdiqi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi, bu istiqamətdə dərin islahatlar üzərindən vətəndaş cəmiyyətinin inkişafının və insan hüquqlarının müdafiəsinin təmin edilməsi üçün geniş imkanlar açır.

O ki qaldı Ermənistana ayrılmış böyük maliyyə yardımına, burada yanaşma tam fərqlidir. Ermənilərin özləri də anlamamış deyillər ki, onlara ayrılan əsaslı yardım paketi Yerevanın Qarabağ dilemması kimi xülyasına dəstək ola bilməz. Çünki Avropa İttifaqı 10 noyabr tarixli Üçtərəfli bəyanatla bölgədə yaranan status-kvonu qəbul edir və onu zorla dəyişdirmək cəhdlərinə qarşıdır. Aİ-nin tarixin zibilliyinə atılmış "Dağlıq Qarabağın statusu" ifadəsini dilə gətirmədən sərhədlərin demarkasiyasına dair çağırışı, məhz İttifaqın belə düşüncəsini əks etdirir.

Avropa İttifaqı-Azərbaycan münasibətlərinin yeni perspektivlərini müəyyənləşdirən əsas amillərdən biri. Prezident İlham Əliyevin mütərəqqi təşəbbüsləri və ciddi siyasi mövqeyidir. Aİ-nin qonşuluq siyasətinə ediyi düzəlişlər fonunda 2015-ci ildən bəri müşahidə edilən sürətli geosiyasi dəyişikliklər Brüssel-Bakı xəttində də maraqlı yeniliklərə səbəb olmaqdadır. Bu baxımdan Azərbaycanla Avropa İttifaqı arasında keçirilən görüşlərdə rəsmi Bakının konkret layihələr üzrə təkliflər verməsi maraqlıdır. Bu onu göstərir ki, Azərbaycan rəhbərliyi üçün Aİ ilə əlaqələr xarici siyasətin prioritetləri sırasına daxildir.

Beləliklə, Azərbaycan yenə də Avropa İttifaqı ilə münasibətlərin real zəmində səmərəli olması üçün üzərinə düşən bütün vəzifələri yüksək səviyyədə yerinə yetirir. Bununla rəsmi Bakı həm Avropa İttifaqı ilə əlaqələri gücləndirir, həm də bir daha regionun aparıcı dövləti, lider ölkəsi kimi fəallığını ortaya qoyur. Ona görə də əminliklə demək olar ki, Aİ-Azərbaycan münasibətləri yalnız ziddiyyətlərlə deyil, həm də perspektivlərlə xarakterizə olunur və Brüsselin strateji xarakterli və konkret məzmuna malik layihələrin həyata keçirilməsinə üstünlük verəcəyinə ümidlər çoxalır. Ona görə də Azərbaycan Prezidentinin qətiyyəti və ədalətli siyasəti iki tərəflər arasında əlaqələrin gücləncəyinə bəslənən ümidlər getdikcə möhkəmlənməkdədir. yap.org.az




## Ərəb mətbuatında Prezident İlham Əliyevin diplomatik və sərkərdəlik məharəti haqqında məqalə dərc edilib

İordaniyanın "Nayrouz" informasiya agentliyi, İraqın "Əl Mədain", "Əfkar Hürə" və "Mustağila" portallarında Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik və sərkərdəlik məharəti haqqında məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, "Prezident İlham Əliyevin diplomatik, siyasi və sərkərdəlik məharəti İkinci Qarabağ müharibəsində Qələbəni təmin etdi" sərlövhəli məqalədə dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində torpaqların işğaldan azad olunduğu və Azərbaycanın ərazi bütövlüyünün təmin edildiyi diqqətə çatdırılır. Yazının müəllifi, azərbaycanlı şərqşünas Həşim Məmmədov qeyd edir ki, istər müharibədən əvvəl aparılan danışıqlar prosesində, istərsə də hərbi əməliyyatların keçirildiyi müddətdə Ermənistanın havadarlarının mürəkkəb təzyiqlərini uğurla dəf edən Müzəffər Ali Baş Komandan İlham Əliyev beynəlxalq mediaya müsahibələrində xalqımızın ədalətli mübarizəsini faktlar və sənədlərlə müdafiə edib. O, eyni zamanda, qüdrətli iqtisadiyyat və ən müasir silah və texnika ilə təchiz edilmiş güclü ordu qurub və bu amillər böyük Zəfərin rəhni olub. Qalib ölkənin Prezidenti müharibədən sonra da təkcə Azərbaycanda deyil, həm də bütün regionda sülhün və təhlükəsizliyin təmin olunması, tərəqqi naminə fəaliyyətini davam etdirir.

Məqalədə ərəb ölkələrinin işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri aparan Azərbaycanla sıx əməkdaşlığından da bəhs edilib. Müəllif diqqətə çatdırıb ki, Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib və başda Səudiyyə Ərəbistanı olmaqla, bütün ərəb dövlətləri ilə ölkəmiz arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişaf etdiyini vurğulayıb.




# "Enerji təhlükəsizliyi artan nüfuzumuzun göstəricisidir"

**"Avropa Azərbaycanı özünün enerji təhlükəsizliyini təmin edən strateji tərəfdaş kimi görür, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, bu fikirlərin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Nazirlərin Bakıda keçirilən VIII toplantısında dəfələrlə səsləndirilməsi və dünyanın bir çox nüfuzlu şirkətlərinin bu fikirlərə tərəfdar çıxması təsadüfi deyildir.**

"Həqiqətən də bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin enerji stradegiyası özünün parlaq nəticələrini verir. Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin uğurla yerinə yetirilməsi indi Avropa ittifaqı ölkələrini Azərbaycana daha da yaxınlaşdırmış və ölkəmizin beynəlxalq nüfuzunu qat - qat artırmışdır. Azərbaycan enerji siyasətində qarşılıqlı münasibətlər və etimada əsaslandığı üçün dünya ölkələri tərəfindən hörmətlə qəbul edilir və tərəfdaş kimi dəyərləndirilir. Cənab Prezident İlham Əliyev bu baxımdan qeyd edir ki, enerji siyasətinin arxasında heç bir siyasi gündəm olmayıb. Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıbdır.

Məlum olduğu kimi Cənub Qaz Dəhlizi XXI əsrin ən böyük layihələrindən biridir və dəyəri 33 milyard ABŞ dolları həcmində olan bu layihənin uğurla reallaşdırılması Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Layihənin tamamlanmasından sonra Azərbaycan o, cümlədən Avropa bazarlarına ixracı artıra bilmişdir, keçən il Azərbaycan 18 milyard kubmetr qaz ixrac etmişdir. Türkiyə, İtaliya, Gürcüstan, Yunanıstan, Bolqarıstan kimi ölkələr Azərbaycan qazından faydalanırlar. Bununla bərabər yeni marşurutların müəyyən edilməsi planlaşdırılır və dünyada Azərbaycan qazına olan tələbat artmaqdadır. Toplantıda da bu fikirlər səsləndirildi və deyilənlər reallıqları əks etdirir. Əlbəttə bu Azərbaycanın gələcək iqtisadi inkişafı və beynəlxalq nüfuzunun artması üçün çox önəmlidir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Vladimir Putin

## və Emmanuel Makron Qarabağı müzakirə ediblər

**Rusiya və Fransa prezidentləri Vladimir Putin və Emmanuel Makron Qarabağda vəziyyəti müzakirə ediblər. AZƏRTAC xəbər verir ki, Fransa Prezidenti Emmanuel Makronun Rusiyaya səfərə çərçivəsində Prezident Vladimir Putinlə keçirilən görüş zamanı Qarabağda vəziyyətlə bağlı da müzakirələr aparılıb.**



Görüşdən sonra təşkil olunmuş mətbuat konfransında V.Putin bildirib ki, fransalı həmkarı ilə Qarabağ ətrafında vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb, atəşkəsə nəzarət edən və dinc həyatın nizama salınmasını təmin edən sülhməramlıların müsbət rolu qeyd olunub. Tərəflər ATƏT-in Minsk qrupunun regionun sosial-iqtisadi problemlərinin həllində əhəmiyyətli rolunu qeyd ediblər.

Fransa Prezidenti Emmanuel Makron öz növbəsində Rusiya sülhməramlı kontingentinin Qarabağ ətrafında vəziyyətin sabitləşməsində rolunu vurğulayıb.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Tik-tokda

## "çarmıxa çəkilən" MÜƏLLİM...

***Yaxud, qalxın "ölülər" gəlir!***

**Yazmaq istəmirdim. Çünki bu mövzuda yazmaq özü böyük cəsarət istəyir insandan. Zavallı və cahil cəmiyyət öz müəllimini sosial şəbəkələrdə bihörmət edirsə, bundan yazmaq qədər ağır heç nə yoxdur. Amma yazmamaq, susmaq da ondan daha betər günahdır. Amma getdikcə rəzil hala çevrilən vəziyyət, bir xalqın və bir ölkənin deyil, bütün insanlığın gələcəyi üçün əvəzedilməz olan böyük MÜƏLLİMİN ucuzlaşdırılması, lağa qoyulması, bihörmət edilməsi elə bir hal alıb ki, buna susacaq cəmiyyət açıq şəkildə öz gələcəyinə güllə sıxır, başqa heç nə. Gününü tik-toklarda, vatçaplarda onun-bununla yazışmağa, boşboğaz videolara layk atmağa, vaxtını "romantik kəşflərə" xərcləyən bir para "valideynlər" bu rəzil vəziyyətin əsas "AKTYORLARIDIR".**

Bu rəzil vəziyyət hər şeydən əvvəl həm də bir cəmiyyətin sonu, fəlakətinin və dəhşətli günlərinin siqnalıdır. Budur, müasir "ölülər" yenə iş başındadır. Daş-qalaq edilən isə, gələcək üçün çıraq tutan ziyalı, işıqlı müəllim şəxsiyyətidir. Yeni novruzəlilər, elm əvəzinə it qapışdıranlar, cahil və avara sürüsü qapını döyür ey camaat! Nizam-tərəzinin, xeyirlə şərin, əxlaqla əxlaqsızlığın toz-dumana çevrildiyi bu günlərdə hədəfdə odur, - böyük MÜƏLLİM! Nüfuzu və şəxsiyyəti tik-toklarda, vatçaplarda param-parça edilən, amma bir zamanların insanları üçün ata-anadan daha doğma və əziz olan, bir kəlməsi yüzlərlə uşağın gələcək taleyini dəyişən, parta arxasındakı şagirdləri üçün şəxsi həyatı, sosial libası qıfıl kimi sirli qalan, əsl ideal olan dəyərli müəllim bütün mənalarda məhv edilir bu gün...

Aylardır ki, bir mövzu sosial şəbəkələrdəki hərzə-mərzə, dedi-qodu hədəfinə çevrilib. Nədir məsələ? Deməli, belə: Ayrı-ayrı məktəblərdə bir qrup tərbiyəsiz şagird müəllimlərini ələ salır, ona əl qaldırır, təhqir edib araya qoyur və bunu insan tərbiyəsi üçün ölüm yuvasına çevrilən tik-tok şəbəkəsində yerləşdirirlər. Bir başqa videoda müəllimin tərbiyəsiz şagirdi intizama dəvət etməsini, ona acıqlanmasını, qolundan tutub sinif otağından çıxarmasını "şok hadisə" kimi qələmə verib müəllimləri "topa tuturlar". Bəs, sən demə, bu, dəhşətli hadisədir, sən demə, müəllim bu tərbiyəsiz uşaqlar qarşısında boynunu bükübdurmalı idi, bu tərbiyəsizlikləri sinəyə çəkməli, cınqırını belə çıxarmamalı idi. Müəllim nədir, sinifdəki tərbiyəsiz şagirdə acıqlanmaq, ona qulaqburması vermək nədir? - biabırçılıq! Sonra nə olur? - bir çoxları da səs-səsə verib başlayırlar şərh yerində ağızlarına gələn tərbiyəsizlikləri yazmağa, digər sosial şəbəkələrdə müəllim şəxsiyyətini "dar ağacına çəkməyə". Ay aman, qoymayın, müəllim uşaqları döyüb-öldürür, onların "sərbəst davranışlarına" sədd çəkir və sairə və ilaxır. Nə deyəsən, nitqin quruyur bu biabırçılıq qarşısında.

Öz evində uşağına tərbiyə verməyi "yaddan çıxaran" bəzi valideynlər, sinif otaqlarında onların da əvəzinə bu işi görməyə çalışan MÜƏLLİMLƏRƏ qarşı sanki qənim kəsiliblər. Tərbiyə yoxsulu olan övladlarına qulaqburması verilməsini, övladlarının onlar kimi deyil, cəmiyyətə yararlı əsl İNSAN, VİCDANLI AZƏRBAYCANLI kimi yetişməsi üçün əmək sərf edən, qanmaz gədələri insana çevirməyə çalışan müəllimləri hədəfə alırlar. Bu, həm də mənə düşünülmüş ssenari kimi gəlir. Sanki hansısa qüvvələr bu ölkədə müəllim nüfuzunun yerlə-bir edilməsi üçün var gücləri ilə çalışırlar.

Bəs müəllimlərin bu hala salınmasında günahkar kimdir? Zəmanəmi, sosial şəbəkə rüsvayçılığımı, evindən məktəbə yola saldığı övladına özündə olmayan tərbiyə və qanacaq verməkdə aciz olan başabəla "valideynlərmi"? Çətin sualdır, inanın cavabı paslanmış qıfıl kimi mücərrəddir...

Amma zənn edirəm ki, günahkar həm tik-toklarda, vatçaplarda baş girləyən, övlad tərbiyəsi nədir bilməyən "valideynlərin" yaşadığı bu cəmiyyətdir, həm zəmanədir, həm də öz müəlliminin nüfuzunu yüksəltmək üçün bir əməli tədbir görməyən, müəllim dəyərini cəmiyyətə tam aşılamaq imkanından uzaq olan nazirlik. Hamı günahkardır, hamı.

Niyə müəllim bu şəkildə bihörmət olunur, niyə bu rəzil durumla nüfuzdan salınır? Yuxarıda da dediyim kimi, sanki bir çox qüvvələr sosial şəbəkə imkanlarından yararlanıb, Qarabağda zəfər qazanan bir xalqı öz müəllimini hörmətdən salmaqla "cəzalandırırlar". Sanki bu xalqın gələcəyini tamamilə məhv etmək üçün kimlərsə əl-ələ verib çalışırlar. Amma həm də müəllim adının, pedaqoji təhsilin və nizam-intizamın pis hala düşməsi də birdən-birə baş verməyib axı. Müəllimin hörmətsizləşdirilməsi onun özünə və ona olan münasibətdən irəli gəlir, tədrisin formallaşdırılıb müəllimliyin biznesə çevrilməsindən qaynaqlanır. Aldığı maaşla heç bir-iki həftə dolanmaq gücündə olmayan, özü bir yana, maddi sıxıntı üzündən evdəki övladlarının üzünə baxmağa utanan, tədris prosesini boş verib öz müəllimlik vicdanını repititor "peşəsinə" dəyişən müəllim necə ideal, sözü keçən ola bilər ki? Əgər müəllim öz biliyini məktəbdəki parta arxasında oturan şagirdlərinə deyil, evində açdığı mini məktəb-repititor skamyasında oturan uşaqlara sərf edirsə, demək, artıq məktəb təhsilindən, bilikli və tərbiyəli şagird yetişdirməkdən danışmaq utanc və mənasızdır. Hətta utanılacaq qədər mənasız! Gözünü imkanlı "dədələrin" məktəbə göndərdiyi tərbiyəsiz uşaqlarının cibinə dikən, maddi qarşılıq əvəzində vicdan əzabı ilə də olsa, onlara yalançı "əla" qiymətlər yazan müəllim, artıq MÜƏLLİM OLA BİLMƏZ, cənablar!

Bir vaxtlar məktəb dəhlizlərində gördə özümüzü yığışdırdığımız, məktəbi bitirəndən sonra da yolda-izdə qarşımıza çıxanda utandığımızdan siqareti əlimizin içində söndürdüyümüz, daima hörməti və dəyəri qəlbimin baş köşəsində yer tutan o böyük MÜƏLLİM OBRAZI daha yoxdur. Daha yoxdur o böyük MÜƏLLİM, o son nəfəsini və müəllim şəxsiyyətini bu gün tik-toklarda, vatçaplarda boy atan biabırçı videolarda itirir. Qorxun ay camaat, "ölülər" gəlir, novruzəlilər qapını kəsdirib!...

# “Heydər Əliyev mənə dedi ki, Zərifə...”

Azərbaycanın ictimai xadimi, Miniatür Muzeyinin təsisçisi və rəhbəri Zərifə Salahova SİA-ya müsahibə verib. Həmin müsahibəni sizə təqdim edirik.

***- Zərifə xanım uşaqlıq illəriniz necə keçib? Harda yaşamısınız?***

- Bakıda Zərgərpalan küçəsində doğulmuşam. Atam Laçın rayonunda çalışırdı. Daha sonra Mircəfər Bağırov onu sədrlikdən çıxartdı və partiyadan uzaqlaşdırdı. O zamanlarda Bağırov Filarmoniyanın yanındakı binada yaşayırdı. Bir gün atam onunla evindən çıxarkən rastlaşır və tələb edir ki, onun biletini qaytarsın, əks təqdirdə onu güllələyəcək. Ümumiyyətlə, Bağırov bizim evdə çox olub, əsasən də anamın yeməklərini çox sevirdi. Lakin 1937-ci ildə Mir Cəfər Bağırovun göstərişi ilə atamı gəlib evdən apardılar. Elə həmin gün atamın 15 dəqiqəlik məhkəməsi baş verir və onu güllələyirlər. Bizə isə bu haqda heç bir məlumat verilmədi və üstəlik dedilər ki, ona 10 il iş veriblər, məktub yazmağa da, icazə verilmir. Yəni mənim sizə dediyim bu məlumatları çox sonra öyrənmişəm. Belə ki, mən Moskvada ölkəmizi basketbol üzrə təmsil edirdim. Həmin yarışdan qayıdanda eşidim ki, NKVD-nin sədri Quskov digər vaqonda gedir. Biz Xarkov şəhərinə çatanda gözətçidən xahiş etdim ki, məni onun yanına aparsın, amma o qoymadı və dedi ki, Rostov şəhərində qatar dayandığı zaman yaxınlaşarsız. Qatar Rostovda dayandı və mən onun yanına girdim və gəlmə səbəbimi açıqladım.O isə mənə cavabında Bakıda gözləyəcəyini və qarşılayacağını bildirdi. Bakıya gəldiyim zamanda qəbuluna getdim və həmin vaxt Bağırovun istintaqı gedirdi. Quskov mənə ərizə yazdırdı və atamla bağlı hər bir şeyi həmin vərəqdə qeyd etdim ki, onun işinə baxılsın. Mən daimi olaraq ora gedib gəlirdim. Bir gün yenə getdim və zala daxil oldum. Zalda çoxlu insanlar var idi. Onların içərisindən biri mənə yaxınlaşdı və dedi ki, Zərifə, qızım necəsən?. Mən duruxmuş bir vəziyyət ona baxdım və tanımadım ki, o kimdir. Lakin o məni və ailə üzvlərimin hər birinin adını bilirdi. Həmin kişi də Bağırovun qurbanlarından imiş və 16 il idi ki, onu sürgün etmişdilər. O, mənə dedi ki, siz axrıncı dəfə atana haçan yemək göndərmisiz, dedim 1938-ci il 3 iyulda. Mənə dedi bax həmin gün sənin atanı güləliyiblər. Bir il ərzində atama görə istintaq işi açıldı və məlum oldu ki, atamın heç bir günahı yoxdur.

***- Uşaqlığınızın ən unudulmaz anları nələrdir?***

- Yadıma gəlir ki, uşaq vaxtı mən və qardaşım Tahir skarlatin xəstəliyinə yoluxmuşduq. Onunla birgə otaqda yatırdıq. Atam hər zaman Laçından gələndə bizə nəsə gətirərdi. Gün gəldi xəstəlikdən qurtulduq, atam bizi Nizamidə yerləşən şirniyyat dükanına apardı və bizə orda çoxlu növbə-növ şirniyyatlar aldı. Mən indiyənə kimi həmin günlərimi unutmuram.

***- Miniatür kitab muzeyinin sizin həyatınızda rolu nədir? Neçə ildir kitab muzeyi fəaliyyət göstərir?***

- Bu il mənim 90 illiyimdir. 23 apreldə isə muzeyin 20 illiyi olacaq. Noyabr ayında isə mənim kolleksiyamın 40 illiyi tamam olur.



***- Muzeydə neçə kitab sərgilənir və hansı ölkələrdə çap olunur?***

- Muzeydə 8860 kitab var. Bunlar 83 ölkədə çap olunub. Biz qeyd aparmışıq və məlum olub ki, muzeyimizə gələn ziyarətçilərin çoxu xaricilərdir. Yalnız 2021-ci ildə pandmeiya səbəbindən səfərlər ləğv olunduğuna görə yerli turistlər daha çox muzeyə gəlib.

***-Ən kiçik kitabınızın ölçüsü nə qədərdi?***

- Muzeyimizdə ən kiçik kitabın ölçüsü 0,75 sm-dır. Bu kitab Yaponiyanın ”Topan” nəşriyyatında 3 dildə nəşr olunub. Burada ən qədim kitab 1632-ci ildə Səudiyyə Ərəbistanında çap olunan Quran kitabıdır. Amma 19-cu əsrin ortasında Polşada bir sənətkar bu kitabı kiçildərək, balaca formata salıb.

***- İstərdim mükafatlarınızla barədə danışaq. Cənab Prezident İlham Əliyev bu yaxınlarda sizi "Şərəf" ordeni ilə təltif etmişdir. Bununla bağlı nə demək istərdiniz?***

- İlk olaraq Cənab Prezident İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Mənim əziyyətimi yüksək səviyyədə qiymətləndirdilər. Bununla yanaşı Prezident məni 75 illiyim münasibətilə də, ”Şərəf” ordeninə layiq görmüşdü.

***- Ulu öndər Heydər Əliyevlə yaxın dostluq münasibətiniz olub. Həmçinin muzeyin yerini Ulu Öndər məsləhət görüb. Bilirsiz ki, gələn il Heydər Əliyevin 100 illiyidir. Bununla bağlı bir planınız varmı?***

- Mən Ulu Öndərin 100 illik yubileyi ilə bağlı 2 cildlik minatür kitab buraxmışam. Heydər Əliyevin 1993-cu il 3 oktyabrda andiçmə mərasimi keçirilirdi. Həmin tədbirdə mən də iştirak edirdim. O zaman Heydər Əliyev çox səlis şəkildə öz çıxışını etdi. Özümə söz verdim ki, mən bu çıxışı çap etdirməliyəm. 1993-1994-cü illər bilirsiz ki, çətin dönəmlər idi. Lakin mən özümə sponsor tapdım və bu kitabı 2 dildə çap etdirdim. Kitabın təqdimatı 3 iyun 1995-ci ildə Milli kitabxananın xarici ədəbiyyat zalında keçirildi. Həmin təqdimata 2 min kitabımı aparmışdım. Orada çıxış edən zaman qeyd etdim ki, mənə muzeyimi açmaq üçün yer verilsin. Heydər Əliyev kitablara baxdı və onun ən çox “Fərhad və Şirin”, ”Əlişir Nəvai” əsərləri xoşuna gəldi. Bu kitabları da mən onun özünə bağışladım. Daha sonra Puşkinin və rusiyalı rəssam Rerixin haqqında olan kitabların onun diqqətini çəkdi. Eyni zamanda mən Qedeyrin keçmiş katibinin 10 tonda kitablarını çıxartmışdım. Bu zaman Heydər Əliyevə dedim ki, baxın Qedeyer, yoxdu amma kitabları qalıb. Heydər Əliyev mənə dedi ki, Zərifə, elə kitablar qalır. Bundan sonra mən muzey üçün yer seçməyə başladım və bu gördüyünüz binanı 3 ilə təmir etdirdim.

***Banuçiçək Hüseynli***

## “Cənub Qaz Dəhlizi layihəsinə olan maraq bu gün göz önündədir”

“Prezident İlham Əliyevin təşəbbüsləri dünyanın enerji təchizatı strategiyasının özülünə çevrilməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Sevil Mikayılova deyib.



Onun sözlərinə görə, dünyanın ən iri enerji layihələrindən olan Cənub Qaz Dəhlizi sülh və etibarlı iqtisadi əməkdaşlıq müstəvisində müasir nümunə olmaqla durmadan beynəlxalq birliyin böyük dəstəyini qazanır: ”Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi Məşvərət Şurası neçə illərdir ki, davamlı olaraq Azərbaycanda keçirilir və öz iştirakçı çevrəsinə görə nüfuzlu enerji platformasına çevrilib.

Cənub Qaz Dəhlizi layihəsinə olan maraq bu gün göz önündədir. Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının çərçivəsində nazirlərin 8-ci toplantısında Avropa İttifaqının komissarlarının, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələrinin iştirakı, həmçinin dünyanın bir sıra aparıcı şirkətlərinin və maliyyə qurumlarının qatılması layihəyə durmadan artan marağı və onun genişlənməkdə olan miqyasını göstərir”, - deyə millət vəkili qeyd edib”.

Deputat sözlərinə belə davam edib: ”Cənub Qaz Dəhlizi vasitəsilə 2020-ci il dekabrın 31-dən Azərbaycan qazı Avropaya nəql olunmağa başlayıb. İmzalanmış müqavilələrə əsasən, 25 il ərzində təbii qaz Avropa bazarına tədarük olunacaq.

Qaza tələbatın daim artdığı Avropa məkanında Cənub Qaz Dəhlizi uzun müddət Avropanın enerji təhlükəsizliyini dəstəkləyəcək. Bu gün bəzi ölkələr qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər artır. Azərbaycan ixrac prosesinə başladığı vaxtdan bu günə kimi təchizatda heç bir ləngimə baş verməyib, müqavilə şərtləri pozulmayıb, Azərbaycan öz öhdəliklərinə sadiq qalaraq üzərinə düşəni layaqətlə yerinə yetirib.

Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir, proqnozlar bu ehtiyatların hətta aratacağını da göstərir. Bu gün dünya bazarlarında Azərbaycanın elektrik enerjisinə də ehtiyac var. Biz dörd qonşu ölkəyə - Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Bu amilləri nəzərə alaraq Azərbaycan bərpaolunan enerji mənbələrinə xüsusi diqqət ayırır. Azərbaycanın ”yaşıl enerji” strategiyası hazırda planlamanın yekun mərhələsindədir. Təkcə azad olunmuş ərazilərdə külək enerjisində potensial təxminən 7200 meqavat, günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Bu istiqamətdə də Azərbaycan intensiv işlər aparır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan post-müharibə və post-pandemiya mərhələsində qarşıya qoyulmuş hədəflərə doğru inamla irəliləyir. Azərbaycanın enerji siyasətində bir ildən artıqdır ki, tamamilə yeni bir mərhələ başlayıb. Cənub Qaz Dəhlizi layihəsi dünyanın müasir enerji strategiyasında mühüm səhifədir, onun perspektivləri olduqca yüksək dəyərləndirilir və hesab olunur ki, yaxın gələcəkdə Avropanın enerji təchizatında layihənin rolu daha da artacaq”.

***Ayşən Vəli***

## Təhsil kreditini kimlər ala bilər?

“Tələbə təhsil kreditini yalnız sosial həssas qrupa aid olan ailələr ala bilər. Bir də standart kredit növü var ki, bunu da akademik göstəriciləri yüksək olanlar ala bilər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.



Onun sözlərinə görə, sosial həssas qrupa daxil olan tələbələr əsasən valideyninin birini itirmiş vətəndaşlardır: ”Eyni zamanda dövlət tərəfindən hər iki valideyni təqaüd yaxud müavinət alan şəxslər də buraya daxildir. Standart kreditə isə akademik göstəriciləri 71 baldan yuxarı olan tələbələr aiddir. Digərləri isə sosial həssas qrupa şamildir. Bunun üçün isə Tələbə Kredit Fondunun saytına daxil olub, müvafiq tələb olunan sənədləri daxil edib daha sonra kreditlərini əldə edə bilərlər”.

Elçin Əfəndi sözlərinə belə davam edib: ”Hazırda 126 min 173 nəfər tələbə ödənişli əsaslarla təhsil alır ki, onlardan 80 min 930-u bakalavr, 10 min 851-i magistr, yerdə qalanlar isə subbakalavr üzrə təhsil alırlar. Yəni, onlar kollec tələbəsidir. Qeyd edim ki, Təhsil Kredit Fondundan kredit götürə biləcək şəxslərin sayı 56 min 208 nəfərdir”.

***Ayşən Vəli***

## “Pensiya yaşının azaldılması məsələsi gündəmdə deyil”

**“Hazırda Azərbaycanda pensiya yaşının azaldılması məsələsi gündəmdə deyil”. SİA-nın verdiyi məlumata görə, bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov mətbuat konfransında deyib. Onun sözlərinə görə, hətta pensiyaçılarımızın yaş həddi də həmin rəqəmin üzərindədir: ”Bunlar nəzərə alınmaqla pensiya yaş həddinin azaldılması planlaşdırılmır”.**



***Arzu Qurbanzadə***

# Könüllülük mənə hər baxımdan uğur qazandırıb

**Ölkəmizdə demək olar ki, bütün sahələrdə könüllülük proqramları həyata keçirilir. Könüllü proqramı gənclərin karyera və dünyagörüşü baxımından inkişaf etməsini təmin edir. Azərbaycan gəncləri bu gün durmadan irəliləyir və ölkənin iqtisadi, siyasi, sosial həyatında uğur qazanmasına səbəb olur. Bu mövzu ilə əlaqədar SİA olaraq "ASAN" Xidmət könüllüləri arasında sorğu keçirdik.**

**"ASAN" könüllüsü Sara Məmmədova:** "Məndən soruşsalar ki, "ASAN"ı nəyə görə bəyənir-



sən cavab verərəm ki, "ASAN" ayrı bir dünyadı, o bizə özünə, vaxtına dəyər verməyi və öz qabağına məqsəd qoyub onun arxasına getməyi öyrətdi. Eyni zamanda burada çox gözəl insanlarla tanış oldum. "ASAN" könüllülüyü mənə hər mənada qazandırdı".

**"ASAN" könüllüsü İbrahim Cabbarov:** "Mən "ASAN"ın "Mədəniyyət çarçısı" lahiyəsinin üzvü-



yəm. Özüm tar ifaçısıyam. Əsasən "ASAN"da baş verən hər bir tədbirlərdə tar ifa edirəm. Könüllülük mənə hər baxımdan uğur qazadırıb. Bütün gənclərə də könüllü olmağı tövsiyyə edirəm".

**"ASAN" könüllüsü Günay Cəfiyeva:** ""ASAN" bir ailədir. Məndə bu ailənin bir üzvü oldu-



ğum üçün çox şanslıyam. Gəncliyimin ən gözəl anlarını "ASAN"la keçirdiyim üçün çox şanslıyam"".

**"ASAN" könüllüsü Fidan Məmmədova:** "2019-da "ASAN" Xidmətə könüllü fəaliyyəti üçün gəldiyim ilk gündən buranın mənə nələrsə öyrədəcəyin bilirdim və yanılmadım. Dostluqlar, təcrübə,



sosial həyat və s. Könüllü fəaliyyətimi bitirəndə də qəlbdən "ASAN" qazandırır" deyə bilərəm".

**"ASAN" könüllüsü Səid Rzazadə:** "ASAN" mənim üçün çox dəyərlidir. Ora gələndən özümü



çox xoşbəxt hiss edirəm. "ASAN" mənə çox gözəl dostlar və dəyərli məlumatlar qazandırdı. Bura mənim üçün çox əziz və dəyərlidi. Yaxşi ki, "ASAN" kimi ailəm var".

**"ASAN" könüllüsü Nigar Gülməmmədova:** ""ASAN" könüllüsü olmaq" mənim çoxdankı arzum idi. Bu arzumu reallaşdırmaq üçün 3 saylı Bakı "ASAN" Xidmətə CV verdim və heç gözləmədiyim anda uğurlu namizəd seçilib könüllü fəaliyyətimə başladım. İlk iş günüm 15.10.2021 tarixində başladı və mən məhz o gün "ASAN"ın mənə çox şey öyrədəcəyinə inanmışdım.



Yanılmadım. "ASAN" Xidmətdə könüllü olasan və əli boş bitirəsən?! Təbii ki, bunlar bir-birinə ziddir. "ASAN"ın sadəcə ictimai təşkilat olduğunu desək yanılmarıq, ancaq az demiş olarıq. "ASAN" yalnız ictimai təşkilat yeri deyil, eyni zamanda mükəmməl əlaqələrin, illərin dostluqlarının qurulduğu yerdir. Biz artıq könüllülər dəstəsi deyil, bir ailə olmuşuq. Fəaliyyətimin sonunda "ASAN" qazandırır" şüarı ağlıma həkk olundu".

***Banuçiçək Hüseynli***

ANALİTİK + AKTUAL

# Geri qaytarılan erməni hərbçilərini nə gözləyir?

## Erməni KİV-ləri Bakıdan İrəvana verilən erməni hərbçilərinin kədərli aqibətlərindən yazırlar

Məhz Azərbaycan dövlətinin humanizm prinsiplərinə söykənərək istər 44 günlük müharibədən sonra, istərsə də sonrakı müddətdə - yəni Ermənistanın təxribatçı əməlləri nəticəsində yaşanan sərhəd eskalasiyalarında əsir düşmüş erməni hərbçilərini öz ölkələrinə geri qaytarılması prosesi beynəlxalq dairələr tərəfindən də yüksək qiymətləndirilir. Zaman-zaman həyata keçirilən bu prosesin özü artıq kifayət qədər sübut edir ki, hələ birinci Qarabağ müharibəsi dövründə öldürülmüş, yaxud itkin düşmüş vətəndaşlarımız barədə məlumat verməkdən yayınan, qanlı cinayət faktlarını gizlədən Ermənistandan fərqli olaraq Azərbaycan daim insani dəyərlərə ali qiymət verməklə bir daha öz üstünlüyünü sübuta yetirmiş olur.

Lakin bütün bunlarla yanaşı, Ermənistanın nəinki azərbaycanlılara qarşı, hətta öz vətəndaşlarına qarşı vəhşi davranışları artıq danılmaz faktlara söykənir və bunu məhz erməni KİV-ləri yazır, ictimai rəyi danışır.

### "Azərbaycandan geri qaytarılan əvvəlki hərbçilərin aqibətlərini nəzərə alsaq, onların bəzilərinə cinayət işləri açılacaq və bir-birlərinin ardınca ştamplanacaqlar"

SİA xəbər verir ki, artıq Ermənistanda Azərbaycan tərəfindən geri qaytarılan hərbçilərə qarşı amansız davranışlara start verilib. Hətta onların içlərində elələri də var ki, sərhəddəki silahlı insidentlər zamanı yaralı şəkildə əsir düşüblər və Azərbaycanın hərbi hospitallarında onlara yüksək səviyyəli tibbi xidmətlər göstərlib, cərrahiyyə əməliyyatları keçirilib, onların həyatları xilas edilib. Lakin bu gün "Azərbaycan erməni hərbçilərini əsir saxlayaraq onlara işgəncələr verir" tipli şərböhtanlar yağdıran Ermənistanın özündə həmin şəxslərə qarşı hansı davranışların göstərilməsini elə onların öz dillərindən də eşidə bilərik.

Beləliklə, Ermənistanın tanınmış saytlarından olan armenianreport yazır ki, fevralın 4-də Avropa İttifaqının rəhbərliyinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevin Fransa və Ermənistan prezidentləri Emmanuel Makron və Nikol Paşinyanın videokonfransı zamanı əldə edilən razılaşmalara əsasən, geri qaytarılan 8 erməni hərbçisi ölkələrinə gələr-gəlməz onları istintaq komitəsi sorğulamaq üçün qamarlayıb-aparıb. "Valideynləri və qohumları onları qarşılayaraq qucaqlamağa macal tapmamış Ermənistanın Baş hərbi istintaq idarəsinin istintaq komitəsi geri qaytarılanları qaparaq-apardı. Azərbaycandan geri qaytarılan əvvəlki hərbçilərin aqibətlərini nəzərə alsaq, onların bəzilərinə cinayət işləri açılacaq və bir-birlərinin ardınca ştamplanacaqlar", deyə erməni KİV-i yazır.

### "Bizim hərbçilər heç bir atəş açmadan, sadəcə, silahlarını yerə qoymaqla qarşı tərəfin tələbinə əsasən əsir düşürlər"

Müəllif yazır ki, o geri qaytarılmış hərbçiləri heç də qəhrəmanlaşdırmaq istəmir, amma eyni zamanda, onların cinayət məsuliyyətinə cəlb edilmələrinə qarşı çıxış edir. SİTAT: "Əsir götürülməyin şəraitləri müxtəlif olur. Üstəlik, müharibədən sonra - hansı ki, ordumuz ruh düşkünlüyündədir. Və hərdən bizim hərbçilər heç bir atəş açmadan, sadəcə, silahlarını yerə qoymaqla qarşı tərəfin tələbinə əsasən əsir düşürlər. Lakin bu məsələ cinayətdən daha çox mənəvi məsuliyyətdir. Ona görə də Ermənistan vətəndaşı olan hər hansı şəxs birmənalı qaydada inanmalıdır ki, vətənləri onların evlərinə geri dönmələri üçün hər şey edəcək və əsir düşmək faktoru əsla onlara qarşı istifadə edilməyəcək, nə indi, nə də gələcəkdə".

Armenianreport geri qaytarılanların bir müddət xüsusi xidmət orqanlarının müşahidəsi altında qalacaqları ilə bağlı istisnalar etməyib və iddia edib ki, guya bu vasitə ilə onların Azərbaycan tərəfindən "verbovka"



olunub-olunmayacaqları öyrəniləcək (?!).

### Müəllif Ermənistanı İsraillə fərqləndirir: "Bizim dövlət onlara bütün yardımları, köməklikləri etmək yerinə, hüquq-mühafizə orqanlarının əllərinə verir"

Müəllif ölkəsini İsraillə fərqləndirərək 2006-cı ilin yayında israilli kapral Qalid Şalitin Həmas qruplaşmasına əsir düşməsini də xatırladıb və qeyd edib ki, onun haqqında yüzlərlə məqalə yazıldı. Lakin İsraildə insan həyatı yüksək dəyərləndirilir və ona görə də SAXAL döyüşçülərinə instruksiya verilir ki, əsir düşərlərsə tələb edilən bütün sorğu-suallara cavab versinlər - əsas sağ qalmaqdır...

"İsraildə əsirlikdən qayıdanlar barəsində xain və ya xalq düşməni kimi düşüncələr jaqqında danışmaq artıqdır. Əsas odur ki, onlar sağdırlar və evlərindədirlər", deyə sayt yazır və sual edir: bəs bizdə? SİTAT: "Ermənistan hakimiyyəti hərbçiləri geri qaytarmağa cəhd göstərsələr də, onları evlərində sevinc hissi olmadan qarşılayırlar. Misal üçün, bu ərəfələrdə vətənlərinə geri dönən 8 hərbçini Fransanın Ermənistandakı səfiri Ann Luyo və Aİ-nin Ermənistandakı nümayəndə heyətinin rəhbəri Andrea Viktorin qarşıladı. Bəs hansı müdafiə naziri, baş qərargahın rəisi, parlamentin müdafiə və təhlükəsizlik komissiyasının sədri? Bizim dövlət onlara bütün yardımları, köməklikləri etmək yerinə, hüquq-mühafizə orqanlarının əllərinə verir".

### "Dövlət onları vətən xaini və satqın elan edirsə, ölkəmizin bir çox gəncləri bu vətənin müdafiəsində dayanacaqlarmı?"

"Və əgər kimsə düşünürsə ki, belə vasitə ilə başqa hərbçilərə dərs verirlər, yəni baxın və görün, əsir düşsəniz başınıza nələr gələ bilər, bu məsələ əks effekt verə bilər", deyə qeyd edən erməni saytı əlavə edir: "Məhz əsir düşsələr və bilsələr ki, vətənə geri dönərlərsə onlar düşmən elan ediləcəklər və onlara qarşı cinayət işləri qaldıracaqlar, bizim hərbi xidmətçimiz düşünə bilər: belə olan halda evə dönməyə dəyərmi?".

Müəllif məqaləsinin sonunda ölkəsinin İsrailə bənzəmədiyini, əslində, SSRİ-nin kədərli təcrübəsini təkrar etdiyini yazıb və xatırladıb ki, əsir düşənləri əvvəldən xalq düşməni hesab edirdilər. O sonda belə bir sual edib: "Əgər vətən qayğı və diqqət yerinə əsirlikdən gələn hərbçilərin qollarına qandal vurursa, onları vətən xaini və satqın elan edirsə, ölkəmizin bir çox gəncləri bu vətənin müdafiəsində dayanacaqlarmı?"

***Rövşən RƏSULOV***

# Artan ailədaxili cinayətlər - Problemin kökündə nə dayanır






**Sürətlə dəyişən dünyamızda insanın yaşaması bir növ onun ən yaxın mühiti ilə münasibətindən, ətraf mühitin insanların davranışlarına təsirini dərk etməsindən asılıdır. İnsanın ən yaxın mühiti onun evi və ailəsidir. Bütün insanlar fərdlər və ya ailələr olaraq daim dəyişən dünyada yaşamalı və bu dünyaya uyğunlaşmalıdırlar. Bir tərəfdən sənaye və texnologiyada baş verən dəyişikliklər ailə həyatına da təsir edir və bu qarşılıqlı əlaqə hazırda kütləvi informasiya vasitələrinin köməyi ilə çox sürətlidir. Əhalidə, sosial-iqtisadi strukturda baş verən dəyişikliklər bilavasitə və dolayısı ilə ailədə də öz əksini tapır və nəticədə ailə həyatı daim dəyişir.**

Ailə bəşəriyyətin bütün tarixi boyu mövcud olmuş və dəyişikliklər qarşısında daim öz davamlılığını qoruyub saxlayan bir qurumdur. Ailə insanın ən dərin tərbiyəvi təsirlər aldığı, çox şeylər öyrəndiyi, həyata hazırlaşdığı bir məktəbdir. Uşaq cəmiyyətdə yaşamağı ailəsindən öyrənir. Uşaqların tərbiyəsində məqsəd sağlam şəxsiyyət yaratmaqdır. Bütün cəmiyyətlərdə ailə şəxsiyyətin yaranması və inkişafında təsirli olan ilk sosial amildir.

**Ailədəki problemləri maddələr baxımından sıralayaq:**

- Evdə söz-söhbət və gərginlik
- Uşaq-valideyn münasibətlərində problemlər
- Uşaqlarda və ya yeniyetmələrdə uyğunlaşma problemləri və davranış dəyişiklikləri
- Alkoqol-maddə istifadəsi
- Depressiya



- Boşanma və ayrılıq
- Uyğunluq məsələləri
- Cinsi problemlər.

Ailə mühiti fərdlərin müsbət davranışlar əldə etdiyi və inkişaf etdirdiyi bir sahə olsa da, bəzən mənfi təcrübələr səbəbiylə travmatik nəticələrin yarana biləcəyi bir sahəyə çevrilə bilər.

Aparılan araşdırmalara görə, evlilik nisbətlərinin əksinə, boşanmaların artdığı görünür. Bundan əlavə, nikah yaşının artması da aşkarlanıb. Məişət problemlərinə gəlincə, zorakılıq əsas problemlərdən biridir. Zorakılıq, güc və təzyiq tətbiq etməklə insanlara fiziki və ya ruhi zərər verən bütün davranışlar kimi müəyyən edilir. Məişət zorakılığı, qısaca olaraq, ailə üzvlərindən birinin ailənin digər üzvləri tərəfindən hücumu kimi müəyyən edilə bilər. Son illər məişət zorakılığının artdığı müəyyən edilib. Məlumdur ki, təhsil, mədəniyyət, həyat keyfiyyəti, sosial quruluş və zorakı davranışın azalması arasında əlaqə var. Ailə institutu zorakılığın və onun növlərinin öyrənildiyi ilk yerdir.

Həyat yoldaşları arasında ünsiyyət problemləri, uyğunsuzluq, valideyn-övlad arasında ünsiyyət problemləri də mühüm ailə problemlərindəndir.

Nəhayət, xüsusilə son vaxtlar gündəmə gələn və kommunikasiya texnologiyalarının inkişafı ilə müşayiət olunan məişət problemi ər-arvad arasında xəyanət və aldatma ilə



məşhurdur. Xüsusilə mobil telefon, internet və sosial medianın geniş yayılması ilə həyat yoldaşlarının aldatma və xəyanətlə qarşılaşmalarının artdığı müşahidə edilir.

Ailədaxili uyğunsuzluq və psixologiyada ailədə yaşanan problemlər depressiya, narahatlıq pozuqluğu, yuxu pozğunluğu, travma sonrası stress pozuqluğu, cinsi problem-



lər kimi bir çox problemə səbəb ola bilər.

Yaxşı bir münasibətdə şiddətdən, xəyanətdən və nəzarət səylərindən uzaq olmalı, sağlam ünsiyyət qurmalıyıq. Beləliklə, xoşbəxt və dinc bir əlaqənin ilk addımını atırıq.

Syuzan Sarandonun dediyi kimi, "Bütün xoşbəxt ailələr eynidir, amma hər bədbəxt ailənin öz hekayəsi var".

SİA məsələ ilə bağlı araşdırma apararaq hüquqşünas, psixoloq və sosioloqların fikirlərini öyrənib.

**Hüquqşünas Fariz Əkbərov ailədaxili cinayətlərdə problemin kökündə dayanan səbəblərin hüquqi yanlarına toxunub:** "Məişət zorakılığı Azərbaycanda geniş yayılmış gender problemidir. Demək olar əksər ailələrdə məişət zorakılığı özünü müəyyən formalarda büruzə verir. Son dövrlər ailə-məişət zəminində baş verən cinayətlərin sayı artıb. Ölkədə ər və arvad qatili, gəlin və kürəkənin öz yaxın adamları tərəfindən qa-



nının tökülməsi ilə bağlı baş vermiş cinayətlər haqlı narahatlıq doğurur. Cinayətlərin də əksəriyyətinin namus üstündə baş verdiyi bildirilir.

Ailə daxilində baş verən qətllərin müxtəlif səbəbləri olur:

Bu, normal adekvat reaksiya deyil, əksinə, qeyr-adekvat reaksiyadır ki, ailə üzvləri səbəbdən asılı olmayaraq bir-birini öldürməyə cəhd göstərir. Ailə zorakılığına məruz qalan qurban (bu, daha çox qadın olur) özünü və ya uşaqlarını qorumaq üçün yoldaşına ağır xəsarət yetirir və nəticədə ölüm faktı törənir.

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, "mühafizə orderi - məişət zorakılığı törətmiş şəxsin zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında akt"dır . Bu akt zorakı şəxsin qurbanı izləmək, sığınacaq tapdığı yeri axtarmaq və narahat etmək kimi zorakılığından müdafiə etmək üçün verilir.

Həmin qanunda göstərildiyi kimi, mühafizə orderləri qısa və uzunmüddətli olaraq verilir. Qısamüddətli mühafizə orderi yerli icra hakimiyyəti tərəfindən müraciət daxil olandan 24 saat müddətində verilməlidir. Uzunmüddətli mühafizə orderi isə yerli məhkəmənin çıxardığı qətnamə əsasında verilir. Qısamüddətli mühafizə orderi bir aylıq, uzunmüddətli order isə altı aylıq müddətə verilir".

**Psixoloq Fidan Namazova:** "Ailə daxili cinayətlər üst-üstə yığılan xırda məişət mübahisələrin toplusu və ya qısqanclıq zəminində yaranan davaları sonucu olur. Cinayətə əl atmaq insanların aqressiya və emosiya partlaması nəticəsində özlərini kontrol edəbilməməsindən törədilir. Az hallarda isə cinayətkar öncədən əməlini planlayır, bu, əsasən, şiddət quranları və ya aşırı qısqanc insanların davranışları olur.

Anlamaq lazımdır ki, həddindən artıq qısqanclıq, şiddətə meyillilik, aşırı aqressiya psixoloji rahatsızlıq əlamətləridir. İnsanlar mütəmadi olaraq psixoloji sağlamlığının



qayğısına qalmalı, stress azaltmaq üçün idmanla məşğul olmalı, ara-sıra gəzintiyə çıxmalıdır. Heç bir səbəb cinayət törətməyi təmizə çıxara bilməz".

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** "Çox təəssüf ki, bu gün dövlət qurumları və biz Qeyri-Hökumət Təşkilatları nə qədər maarifləndirmə işləri aparsaq da, ailədaxili cinayətlərin qarşısını ala bilmirik. Ailədə baş verən cinayətlər cəmiyyətdə böyük narahatçılıq doğurur. Ən narahatedici məqam da odur ki, bir çox hallarda ərləri tərəfindən qətlə yetirilən qadınlara "xəyanət"



damğası vurub qətl törədəni haqlı çıxarmağa çalışırlar. Amma çox vaxt məhkəmə araşdırması zamanı bəlli olur ki, qətlə səbəb heç də xəyanət deyilmiş.

Çox vaxt ailələr haqqında danışanda, baş verən cinayətlərlə bağlı fikir yürüdəndə əsas məqamı unuduruq ki, ailədə heç bir münaqişə və sonu qətllə nəticələnən cinayətlər birdən-birə baş vermir. Ailəyə kənar müdaxilələrin olması gəlin-qaynana çəkişməsi, ərin ailəyə olan biganəliyi, xasiyyətlərin, dünyagörüşlərinin uyğunlaşmaması, yersiz, həddini aşan qısqanclıqlar, səbəbindən baş verən mübahisələr ailədə dərinləşdikcə sonda qətllərə səbəb olur".

SİA məsələ ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:

**Şəhər sakini Fatma Abdulla:** "Ailə böyük məfhumdur. Düşünürəm ki, şəxslər ailə qurmazdan öncə bunu hərtərəfli araşdırmalı və ortaq qərarlar verməlidir. İstər iş, istər maddi, istərsə də mənəvi cəhətdən yolların eyni olduqları qənaətinə gəldikdən sonra bu imzanı atmaq düzgün olardı. Son zamanlar ailədaxili münaqişələrin, cinayətlərin artması fikrimcə, azyaşlıların evliliyə məcbur edilməsi, bir-birini yaxşı tanımadan verilən qərarlar və məişət zorakılığının artmasının nəticəsidir. Ümid edək ki, gənclər, ailə quran şəxslər qərarlarını hərtərəfli düşünüb bu addımı atacaqdırlar. Hər kəsə xoşbəxtlik diləyirəm".

**Şəhər sakini Nərmin Bağırzadə:** "Son dövrlər ailə-məişət zəminində baş verən cinayətlərin sayı artıb. Ailədaxili şiddət və ya zorakılıq bu anlayış barədə indi hətta balaca uşaqlarımızında anlayışı var. "Qadın ərini baltaladı", "ailə münaqişəsi zəminində ər arvadının başını kəsdi", "ər həyat yoldaşını güllələdi", "kişi arvadının boğazını kəsdi", "ər arvadını döyə-döyə öldürdü"... kimi xəbərləri demək olar ki, hər gün eşidirik. Əvvəllər nadir hallarda təsadüf olunan bu tip cinayətlər son dövrlərdə adi hal kimi qəbul olunmağa başlanılıb. Qətlin kökündə bir aqressiya durur. Ailədaxili cinayətlərin baş verməsinin əsas səbəbi şəxsiyyətlərarası münasibətlərin düzgün qurulmaması ilə bağlıdır". Bu cinayətlərin baş vermə səbəbi isə namus və xəyanət üstündə olduğu ortaya çıxır. Ağır cinayətlərin mətbuatda, sosial şəbəkələrdə birbaşa paylaşılması yolverilməzdir. Çünki bu cür ailədaxili cinayət xəbərlərini dərc edərkən diqqətli olmaq lazımdır. Əgər mətbuatda intihar hadisələrindən çox yazılarsa, intiharların sayında kəskin artım olur. Eləcə də ağır cinayətlərlə bağlı da bu sözü demək olar. Bu cür cinayətlərdən çox yazanda cinayətlərin sayı azalmır, əksinə, bir müddət artmağa başlayır".

**Şəhər sakini Paşa Məmmədov:** "Ailədaxili münasibətlərin ilk səbəblərindən biri xəyanətdir. İkinci səbəb isə güvənsizlikdən qaynaqlanır. İstər kişi, istərsə də qadın şəxsi münasibətdə bir-birinə güvənməlidir. Tərəflər arasında qarşılıqlı anlayış olmalıdır. İki insanı bir-birinə bağlayan ən güclü amillər bunlardır".

***Ayşən Vəli***

# "Ermənilər həmişə ələ baxan olub"

**"Ermənilərin təxribatları heç vaxt kəsilməyəcək. Çünki onların marağında olan odur ki, bölgədə gərginlik daimi xarakter alsın və onlar bundan sui-istifadə edərək bütün dünyaya car çəksinlər ki, Azərbaycan böyük problemlər yaradır. Onlar guya yenə də küncə sıxılmış və yalnız qalmış tərəfdilər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.**



Onun sözlərinə görə, sirr deyil ki, Ermənistan daim Azərbaycan və Türkiyə ilə qarşıdurmada həmişə üçüncü qüvvələrə, digər tərəflərə, ölkələrə arxalanır: "Artıq ermənilər başa düşürlər ki, onların siyasi mövqeləri get-gedə zəifləyir. Çünki ermənilərə 2020-ci ilin hərbi kampaniyasına qədər bir çox ölkələr, orada yaşayan ermənilər, diaspor strukturları həmişə onlara köməklik göstərirdilər. Ermənilər təbliğatı elə qurmuşdular ki, guya onlar müsəlman dünyasının beşiyində, mərkəzində olaraq həmişə sıxıntılarla üz-üzədirlər. Ancaq müharibədən sonrakı dövrdə bizim ideoloji sahədə yaratdığımız bu dəyişiklər dünyanın gözünü açdı və dünyanı agah etdi ki, problemlərin kökündə məhz erməni iddiaları durur. Bununla da bəzi qüvvələrin, ölkələrin onlara qarşı olan rəğbətləri azalır, həm də onlara ayırdıqları köməyi məhdudlaşdırırlar. Bu da təbiidir. Çünki ermənilər həmişə ələ baxan olub. İndiki şəraitdə ermənilər Azərbaycanın yeni reallıqlarının bölgədə formalaşdırılmasına maneçilik törətməyə çalışırlar. Ona görə də ermənilər ərazilərimizdə müxtəlif təxribatlar törətməyə çalışırlar. Onların məqsədi bütün dünyanı inandırmağa çalışmaqdır ki, guya bu bölgədə baş verən problemlərin yaradıcısı Azərbaycandır. Bununla dünya birliyi ermənilərin dərdinə yansın, onlara köməklik göstərsin və Azərbaycana qarşı təzyiqlərini artırsınlar".

***Arzu Qurbanzadə***

# İnsanlarda hansı peşəyə qarşı maraq yoxdur



**"Azərbaycanda, həqiqətən də, elə peşələr var ki, onlara maraq yoxdur. Peşələr bir neçə növlərə bölünür. Bunlara klassik peşələr, yeni dövrün tələblərinə uyğun peşələr aiddir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov deyib.**

**Onun sözlərinə görə, bu baxımdan klassik peşə dedikdə, toxuculuq, dülgərlik kimi peşələr nəzərdə tutulur: "Bu peşələr insan cəmiyyəti təşəkkül tapdıqdan sonra, artıq həmin peşələrə insanlar meyil salıblar və uzun müddət keçsə belə, bu peşələr aradan çıxmayacaq. Yeni peşələr isə müvafiq olaraq dövrün tələblərinə uyğun olaraq yaranırlar. Komputer mühəndisliyi, komputer ustası, telefon ustası kimi peşələrdir. Bu peşələr artıq Bakı Peşə Mərkəzində də tədris olunurlar. Ona görə də, ümumiyyətlə, Azərbaycanda peşə təhsilinə maraq düşünmürəm ki, azdır. Sadəcə, peşə təhsili verən müəssisələrimizin sayı çox azdır. Əlbəttə ki, insanlar övladlarının ali təhsil almasına daha çox maraqlıdır. Amma valideynlər bəzən unudurlar ki, yaxşı peşə təhsili görmüş bir gəncin əmək bazarında özünə yer tapması, daha tez iş tapmaq imkanı əldə etməsi baxımından daha əhəmiyyətli ola bilər. Bu gün Azərbaycanda çox az sayda peşə məktəbləri qalıb. Təhsil Nazirliyi həmin peşə məktəblərinin bərpası istiqamətində işlər görür. Bundan əlavə həmin peşə məktəblərinin maddi infrastrukturunu yenidən qurmaq, onları müasir tələblərə cavab verən səviyyədə yenidən təşkil etməkdən ibarətdir. Peşə məktəbi həmin bölgə üçün lazımi kadrları yetişdirir. Bundan əlavə həmin rayonun təbii-coğrafi şəraiti baxımından da çox önəmlidir. Onu qeyd edim ki, artıq bu sahədə ciddi işlərə başlanılıb".**

***Arzu Qurbanzadə***

# Xocalı soyqırımı bəşəriyyətin faciəsidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı imzaladığı Sərəncamda bildirilir ki, Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirildi, 487 dinc sakin ağır yaralandı, 1275 nəfər isə girov götürüldü".Sərəncamda, həmçinin bildirilir ki, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı.



**44 günlük Qələbə ilə Xocalı qurbanlarının qisasını almış qalib xalq kimi yad edəcəyik**

## ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV YENİDƏN AZƏRBAYCANDA HAKİMİYYƏTƏ GƏLDİKDƏN DƏRHAL SONRA XOCALI FACİƏSİNƏ HÜQUQİ-SİYASİ QİYMƏT VERİLƏRƏK ERMƏNİLƏR TƏRƏFİNDƏN TÖRƏDİLMİŞ İNSANLIQ ƏLEYHİNƏ CİNAYƏT AKTI "XOCALI SOYQIRIMI" KİMİ RƏSMİLƏŞDİRİLDİ

Xocalı soyqırımı törədildiyi dövrdə hakimiyyətdə olan qüvvələr nəinki bu dəhşətli hadisə haqqında beynəlxalq aləmə məlumat vermirdi, əksinə respublika ictimaiyyətindən belə əsl həqiqətləri gizlətməyə çalışırdı. Əvvəlki hakimiyyət mənsublarından fərqli olaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyev yenidən Azərbaycanda hakimiyyətə gəldikdən dərhal sonra Xocalı faciəsinə Milli Məclis səviyyəsində hüquqi-siyasi qiymət verilməsinə nail oldu və ermənilər tərəfindən törədilmiş insanlıq əleyhinə cinayət aktı "Xocalı soyqırımı" kimi rəsmiləşdirildi. Ulu Öndərimiz, daha sonra isə cənab Prezidentimiz İlham Əliyev keçirdiyi bütün rəsmi görüşlər və iştrak etdikləri hər bir beynəlxalq səviyyəli tədbirlərdə Xocalı soyqırımı haqqında görüş və tədbir iştirakçılarına ətraflı məlumat verməklə dünya miqyasında bu müdhiş hadisənin tanıdılmasına xüsusi diqqət yetirdi. Respublikamızın diplomatik korpusu, diaspora təşkilatları Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması işinə cəlb edildi. Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması işində Heydər Əliyev Fondunun və Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın başlatdığı "Xocalıya ədalət" kampaniyası çərçivəsində aparılan ardıcıl və silsilə tədbirlərin müstəsna rolu olduğunu xüsusi qeyd etmək lazımdır. Aparılmış məqsədyönlü siyasət sayəsində dünyanın doqquz dövlətinin və ABŞ-ın 20-dən çox ştatının parlamentləri Xocalı soyqırımına həsr olunmuş xüsusi qətnamələr qəbul etmiş, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanımışdır. Bu gün də Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması istiqamətində ardıcıl iş aparılmaqdadır.

## "TƏHLÜKƏSİZLİK ŞURASININ QƏTNAMƏLƏRİNİN TƏLƏBLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ VƏ TARİXİ ƏDALƏTİN BƏRPA EDİLMƏSİ UĞRUNDA VƏTƏN MÜHARİBƏSİNƏ QALXDI"

Sərəncamda o da bildirilir ki, Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı: "Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. "Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir. Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq".

## İŞĞALÇI ERMƏNİSTAN BU GÜN DƏ ÖZ MƏNFUR NİYYƏTİNİ DAVAM ETDİRİR

Beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Çox təəssüflər olsun ki, işğalçı dövlət bu gün də öz mənfur niyyətini davam etdirir. Aərbaycanın həm diplomatiya sayəsində, həm də döyüş meydanında əldə etdiyi üstünlük qarşı tərəfdə narahatlığa, təşvişə səbəb olur. Ermənistanın işğal olunmuş ərazilərdəki qanunsuz hərəkətləri, mülki şəxslərin atəşə tutulması və bu yolla dinc əhaliyə qarşı etdiyi cinayətlər onun terroru, soyqırımını tarix boyu siyasətinin əsas elementi kimi həyata keçirdiyini bir daha sübuta yetirir. Özləri haqqında "məzlum xalq" obrazı yaratmağa çalışan ermənilər bu gün də dünya ictimaiyyətini qondarma soyqırımı iddiaları ilə çaşdırmağa çalışırlar. Ermənistan, sözün əsl mənasında, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərini işə salaraq, beynəlxalq humanitar hüquq öhdəliklərinin əsas norma və prinsiplərinə etinasızlıq göstərməyə davam etməklə özünü ifşa edir. Artıq bir dəfə Xocalı soyqırımı (1992) törətmək təcrübəsi olan Ermənistan 44 günlük II Qarabağ müharibəsində də dinc azərbaycanlı əhaliyə qarşı növbəti belə faciəni törətmək cəhdini həyata keçirdi. Müharibənin getdiyi döyüş bölgəsindən bir xeyli aralıda yerləşən, hərbi əhəmiyyət daşımayan, Azərbaycanın ikinci ən böyük şəhəri Gəncə başda olmaqla Bərdə, Mingəçevir və digər şəhər və rayonlarda mülki əhalini hədəf seçən Ermənistan 28 il əvvəlki faciəni təkrarlamaqla yenidən istəyinə nail olub, insanlar arasında qorxu, təşviş yaradaraq yaşadıqları əraziləri tərk etmələrinə çalışsalar da, onlarla ölüm-itim olmasına baxmayaraq ballistik raketlərdən endirilən zərbələr də bu dəfə bir nəticə vermədi. Azərbaycanın qisası qiyamətə qalmadı. Xüsusilə son 18 il ərzində atılan addımlar Azərbaycanın o qisas gününə hazırlıq məqsədi daşıdı. Qisas hissi daha da alovlanan xalq Ali Baş Komandanının və Ordusunun ətrafında sıx birləşərək düşmənin üstünə əliyalın belə getmək üçün cəbhəyə can atdı. Bu həmrəylik, birlik nəticəsində Azərbaycan 30 illik Vətən həsrətinə son qoydu. Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşündə çıxışı zamanı bildirdi ki, nəhayət o qisas günü yetişdi: "Biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq, bunu heç gizlətmirdik". Nəhayət o gün yetişdi. Bir vaxtlar Xocalıdan və digər işğal edilən ərazilərdən ayaqyalın, gözyaşı içində qucaqda çıxan körpələr Vətən Müharibəsi zamanı tank üstündə gülə-gülə qisasını almaq üçün irəli atıldı və doğma yurd-yuvasını düşməndən azad etdi. Və bununla da Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı.

## XOCALI FACİƏSİNİN BEYNƏLXALQ HÜQUQA ƏSASƏN MƏHZ SOYQIRIMI OLDUĞUNU TƏSDİQ EDİR

Artıq dünya ictimaiyyəti Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bu soyqırımından xəbərdardır, onun tanınması istiqamətində görülən işlər də öz bəhrəsini verməkdədir. İnsanlıq əleyhinə törədilmiş bu faciənin tanıdılması istiqamətində dövlət tərəfindən görülən işlərin miqyası ildən-ilə genişlənməkdədir. Prezident İlham Əliyev Xocalı faciəsini xalqımızın tarixində ən dəhşətli qətliam kimi qiymətləndirərək bildirib ki, bu dəhşətli cinayətin dünya ictimaiyyətinə çatdırılması hər bir azərbaycanlının ən ümdə vəzifələrindən biri olmalıdır: "Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da bildirmək istərdim ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir. Bu işdə Azərbaycan və türk diaspor təşkilatlarının yeni yaradılan birliyi, fəaliyyətinin əlaqələndirilməsi böyük əhəmiyyətə malik ola bilər. Biz mübarizədə öz gücümüzə, potensialımıza, beynəlxalq hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanırıq".

***Rəfiqə HÜSEYNOVA***

TƏHLİL

# Sosial sahədə islahatlar öz bəhrəsini verir

**Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" növbəti Sərəncam əhalinin sosial rifahının qorunmasına xidmət edir**

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası olaraq əmək pensiyaçılarının sosial müdafiəsini gücləndirmək, COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərini yumşaltmaq, həmçinin postmüharibə dövründə xüsusi əhali qruplarına dövlət qayğısını artırmaq məqsədilə fevralın 8-də Sərəncam imzalayıb.**

Sərənsama əsasən, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2022-ci il yanvarın 1-dək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin; 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş əmək pensiyaçılarına (qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla) 2022-ci il üzrə 200 (iki yüz) manat məbləğində maddi yardımın bərabər hissələrlə rübdə bir dəfə olmaqla ödənilməsini təmin etsin.



### PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİNİN MƏRKƏZİNDƏ HƏR ZAMAN VƏTƏNDAŞ RİFAHININ TƏMİNATI DAYANIB

İqtisadiyyatın sürətli inkişafı, möhkəm ictimai-siyasi sabitliyin təmin olunması, vətəndaşların sosial rifahının yüksəldilməsi ölkəmizdə daxili siyasətin mühüm uğurlu göstəriciləridir. Həyata keçirilən dövlət proqramlarının, çoxşaxəli islahatların real nəticəsi olaraq ölkə iqtisadiyyatı, xüsusən, qeyri-neft sektoru sürətli inkişaf mərhələsinə qədəm qoyub, bütün kateqoriyalardan olan vətəndaşların əməkhaqları bir neçə dəfə artıb, iqtisadiyyata sərmayə yatırımı yüksəlib. Ölkənin iqtisadi potensialının tam hərəkətə gətirilməsinə nail olan Prezident İlham Əliyev Azərbaycanın gələcəyinin, ölkənin qüdrətinin məhz iqtisadiyyatdan asılı olduğunu hər zaman qeyd edir. Ölkəmizi yüksək nailiyyətlərə aparan iqtisadi inkişaf strategiyasını uğurla reallaşdıran dövlət başçısının fəaliyyətində sosial məsələlərə diqqət prioritet istiqamət təşkil edir. İldən-ilə inkişafda olan Azərbaycan iqtisadiyyatı bütün parametrləri ilə yanaşı, həm də xalqın sosial rifahının, güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunmaqdadır. Çünki ölkə iqtisadiyyatının ardıcıl və dinamik inkişafı, həyata keçirilən köklü dəyişikliklər iqtisadi sabitliyi təmin etməklə bərabər, dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə geniş yol açıb, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün möhkəm zəmin yaradıb. Bu baxımdan, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, bütövlükdə bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətləri sayılır. Sosial sahəyə diqqət və qayğının nəticəsidir ki, dövlət büdcəsində sosialyönümlülük prioritet məqsədlərdən biridir.





### ÖLKƏDƏ APARILAN SOSİAL İSLAHATLAR DÖVLƏT BAŞÇISININ DAİM VƏTƏNDAŞLARI DÜŞÜNDÜYÜNÜ VƏ ONLARIN SOSİAL RİFAHININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTİNDƏ DAİM ADDIMLAR ATDIĞINI BİR DAHA TƏSDİQLƏYİR

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan sosial islahatlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində daim addımlar atdığını bir daha təsdiqləyir. Bu baxımdan, 2021-ci il vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi baxımından uğurlu bir il oldu. Prezident İlham Əliyevin 2021-ci ildə imzaladığı fərman və sərəncamlar bu sahədə də yeni başlanğıc hesab edilə bilər. Belə ki, 2018-2021-ci illərdə sosial təminat, o cümlədən pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə illik xərclərdə 60% artımın qeydə alınması Azərbaycan dövlətinin əhalinin sosial müdafiəsinə nə qədər ciddi önəm verdiyini göstərir. Təkcə 2021-ci ilin dekabr ayında Prezident İlham Əliyevin imzaladığı yeni Fərman və Sərəncamlar sosial islahatların 2,1 milyon insanın rifahına dəstək olan və illik əlavə 1,5 milyard manat vəsait ayrılmasını nəzərdə tutan yeni mərhələsini açdı, minimum aylıq əməkhaqqı artırılaraq 250 manatdan 300 manata çatdırıldı. Bu artım dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər olmaqla, 800 min işçini əhatə edir. Ümumilikdə son üç ildə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Bununla yanaşı 2021-ci ildə təqaüdlərin, pensiyaların, ünvanlı sosial yardımların və digər ödənişlərin artırılması istiqamətində vacib addımlar atıldı.

### AZƏRBAYCANDA PENSİYA TƏMİNATI VƏ DİGƏR SOSİAL GÖSTƏRİCİLƏR BİR SIRA SAHƏLƏRDƏ MDB ÖLKƏLƏRİ ARASINDA İLK PİLLƏLƏRDƏ QƏRARLAŞIB

Görülən bu işlərin nəticəsidir ki, Azərbaycanda pensiya təminatı və digər sosial göstəricilər bir sıra sahələrdə MDB ölkələri arasında ilk pillələrdə qərarlaşıb. Belə ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində 2021-ci il də uğurlu islahatlar ili olub. Şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Qeyd edək ki, 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Dövlətimizin başçısının 2021-ci il 25 yanvar tarixli Sərəncamı ilə bu kateqoriyalardan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsinin nəzərdə tutulması proqramın daha da genişlənməsinə imkan verdi. Bunun nəticəsi olaraq, 2021-ci ildə üç il əvvələ nisbətən 5 dəfə çox olmaqla 3 min mənzil şəhid ailələrinə və müharibə əlillərinə verilməsi proqramı icra olundu. Ümumilikdə ötən dövrdə 12300 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib.



Eyni zamanda, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri uğurla davam edir. 2021-ci ildə daha 164 nəfər müharibə əlili minik avtomobili ilə təmin edilib və bu günədək 7400 müharibə əlilinə avtomobil verilib.

Əlilliyi olan şəxslərin müavinətləri I dərəcə üzrə 150 manatdan 220 manata, II dərəcə üzrə 130 manatdan 180 manata, III dərəcə üzrə 110 manatdan 120 manata çatdırılıb. Əlilliyi olan şəxslərin müavinətləri üç il əvvələ nisbətən I dərəcə üzrə 2,7 dəfə, II dərəcə üzrə 3 dəfə, III dərəcə üzrə 2,3 dəfə artıb. Müddətli hərbi xidmətdə olanların hər uşağına görə müavinət 100 manatdan 120 manata çatdırılıb və üç il əvvələ (68 manat) nisbətən 76,5 faiz artıb.

Bir sözlə, insan amili, vətəndaşların sosial rifahının yüksəldilməsi dövlətimizin başçısının həyat amalıdır, ən başlıca vəzifə kimi qarşıya qoyulub və bu əməli fəaliyyətdə qəbul olunmuş qərar və sərəncamlarda öz əksini tapır. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində addımlar atdığını bir daha təsdiqləyir. Postmüharibə və pandemiya dövründə sosial sahəyə bu qədər önəmin verilməsi bir daha göstərir ki, Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı dayanır. Göründüyü kimi, görülən bu işlərin nəticəsidir ki, Azərbaycanda pensiya təminatı və digər sosial göstəricilər bir sıra sahələrdə MDB ölkələri arasında ilk pillələrdə qərarlaşıb.

Ümumiyyətlə, pensiya və müavinətlər, əhalinin ən müxtəlif təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı dövlət başçısının imzaladığı çoxsaylı fərman və sərəncamlar, həyata keçirilən sosial islahatlar dövlətin bu istiqamətdə davamlı siyasətinin məntiqi nəticəsidir. Və cari ildə də bu uğurların sırası daha da genişlənəcək.

***RƏFİQƏ KAMALQIZI***

# İnsan xarakteri dəyişir?

**Hər insanın özündə dəyişmək istədiyi bəzi yönləri var. İnsan öncə, özünü, həyatını və ətrafını mənfi şəkildə təsirləndirən amilləri dəyişmək istəyir. Lakin bəzi insanlar dəyişmək üçün girdiyi bu yoldan yarımçıq qayıdır. İnsan həqiqətən dəyişə bilər? Belə bir deyim var ki, insan yeddisində nədirsə, yetmişində də odur? Yaş irəlilədikcə, illər keçdikcə xarakter dəyişir?**

Dəyişmək çox uzun bir müddət tələb edir, lakin imkansız bir şey də deyil. Qadınlar bir kişiyə aşiq olur və sonra onu olmaq istədikləri kişiyə çevirməyə çalışırlar. İnsanları dəyişən əsas amillər onların yaşadıqları hadisələrdir, gərgin təcrübələr insan ruhunda dərinlik yaradır, sonra isə dəyişiklik istəyi yaranır. Bu istək daxildən gəlməlidir, çünki insanlar çox vaxt kənardan onlara qoyulan dəyişiklik öhdəliyinə müqavimət göstərirlər. Bəli, insanlar zamanla dəyişir və bu normaldır.

Dəyişmək istədiyiniz insanı bu hisslərdən uzaq tutaraq, onu olduğu kimi sevdiyinizi söyləyərək başlaya bilərsiniz. Sonra "Sən belə yaxşısan, amma daha yaxşı ola bilərsən" cümləsi sanki bir sehrdir. Biz insanlar üçün həqiqətən və



tam dəyişiklik mümkündürmü? Yoxsa yeddidə olduğumuz kimi yetmişdə də eyniyik?

Şəxsiyyəti formalaşdıran bir çox amillər var. Buraya genlər, ətraf mühit, həmyaşıdlar, təcrübələr və s. daxildir. Bəziləri çox əsəbi və gərgin bir təbiətə malikdir, bəziləri isə son dərəcə sakit və durğundur. Araşdırmalar göstərir ki, körpəlikdə formalaşan şəxsiyyət sonradan da davam edir.

3 yaşında nəsinizsə, indi də olduğunuz kimisiniz. 1950-ci illərdə aparılan bir araşdırmada doğumundan 30 yaşına qədər 133 insan müşahidə edilib. Tədqiqatçılar körpələrin fəaliyyət səviyyələrinə, əhval-ruhiyyələrinə və diqqət vəziyyətlərinə görə onların doqquz fərqli xüsusiyyətini müəyyən ediblər. Nəticədə onlar "asan uşaqlar", "çətin uşaqlar" və "yavaş uşaqlar" kimi kateqoriyalara ayrılıblar. Bu araşdırmada üç yaşında asan və ya çətin olaraq təyin olunan uşaqların da yetkinlik dövründə eyni kateqoriyada qiymətləndirildiyi müşahidə edilmişdir.

Yetkinliyin ipuçları körpəlikdə gizlənir.Təbii ki, zamanla şəxsiyyətdə bəzi dəyişikliklər baş verə bilər. Lakin körpəlikdən uşaqlığa keçid dövründə insanın şəxsiyyəti tədricən aydınlaşmağa başlayır. Üç yaşına qədər nümayiş etdirilən davranışlar da həmin şəxsin yetkinlikdəki şəxsiyyətinə dair ipuclarını ehtiva edir.





Uşaqlıq yetkinliyin güzgüsüdür. London Psixiatriya İnstitutunun nəşr etdiyi bir araşdırmada, min dən çox 3 yaşlı uşağın "uyğunlaşan", "nəzarət olunan", "inamlı", və "utancaq" kimi xüsusiyyətləri müşahidə edilib. 1975-76-cı illərdə davranışları qiymətləndirilən yaşlı uşaqlar, 26 yaşlarında edilən qiymətləndirmələrlə müqayisə edildi. Müqayisə nəticəsində onlar arasında böyük oxşarlıqlar göründü. Yəni, aralarında elə də bir fərq olmadı.

Psixoloji problemlər də uşaqlıqla bağlıdır. Ona görə də hər hansı bir psixoloqa müraciət edəndə, o sizin uşaqlığınıza qayıdır. Tədqiqatçılar böyüklərdəki psixoloji problemlərin ilk əlamətlərinin uşaqlıqdan yarandığını iddia edirlər.

**SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və ekspertlərin fikirlərini öyrənib:**

"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri, Azərbaycanın QHT sektorunun tanınmış təmsilçisi Gülayə Səfərova:



"Düşünürəm ki, zamanla insan dəyişir. Onun özünəməxsus davranış formasını əks etdirən xarakteri həyat prosesində, düşdüyü mühitdə, təlim və tərbiyəsinin təsiri altında formalaşır. Bütün bunlarla bərabər insanın xarakteri onun dünyagörüşü və əqidəsi ilə də sıx bağlıdır. Eyni zamanda, bəzi insanları dəyişməyə sövq edən həyatda yaşadığı stresli vəziyyətlər, münaqişələr, uğursuzluqlar da səbəb olur. İnsan yaşa dolduqca onun ağlı təfəkkürü də inkişaf edir, doğru ilə yanlışı ayırd etməyə başlayır. Bu amillər də insanın dəyişməsinə səbəb olur. Onun təxəyyülünü inkişaf etdirir, mənlik şüurunu formalaşdırır. Yəni insanın bütün bu yaşadıqları əsas verir ki, deyək insan yeddisində nəcədirsə yetmişində elə deyil. Bu, mənim həyatda gördüklərimdən qənaətə gəldiyim fikirlərdir".

**Psixoloq Leyla Fətəli:** "İnsan həqiqətən dəyişə bilər. Yetər ki, bunu insan özü görsün və istəsin. Bir insanı heç kim özü istəmədən dəyişə, onu başqa bir yola yönləndirə və dəyişə bilməz. Əgər bir insanın dəyişməyini çox istəyiriksə, ona normal şəkildə mənfi cəhətlərini deməliyik. Amma bunu onu incitmədən, qorxutmadan etmək lazımdır. Yanında olaraq onu olduğu kimi sevərək, "amma belə olsan daha yaxşı olardı" kimi davranmaq lazımdır.



"İnsan yeddisində nədirsə, yetmişində də odur" deyimi ilə razı deyiləm. Yaş irəlilədikcə təbii ki, xarakter dəyişir. İnsanın yeniyetməlik dövründəki xasiyyəti ilə indiki eyni deyil. Yaş artdıqca xarakter formalaşır. Əsas odur ki, insan ailədən və məktəbdən doğru korreksiya olunsun. Ən əsası da özü-özünü formalaşdırmağı, inkişaf etdirməyi bacarsın".

SİA məsələ ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:

**Şəhər sakini Paşa Məmmədov:** "Məncə, insan dəyişir. Ən azından bunu sevdiyi, dəyər verdiyi insanlar üçün edir və etmək istəyir. Söhbət insanda olan mənfi xüsusiyyətlərdən gedir. Bəzən deyirlər ki, xasiyyəti tünd adam dəyişmir, elə necədirsə həmişə elə qalır. Mən bu fikirlərlə razı deyiləm. Bu, həmin kişinin həyatında olan, onu dəyişdirmək gücünə malik olan insandan asılıdır. Əgər həyatınızda sizin mənfi xüsusiyyətlərinizi müsbətə doğru dəyişə biləcək biriləri varsa, siz yaxşı mənada dəyişəcəksiniz. Qarşılıqlı anlaşma yolu ilə hər şey mümkündür, sadəcə, istəyin".

**Şəhər sakini Nicat Ələkbərov:** "Məncə, bu sualın cavabı insandan və onun düşdüyü mühitdən asılıdır. İradəsi güclü olan insan düşüncə tərzini, xarakterini dəyişə bilər (və ya əksinə). Amma insanı bəzən gördükləri, yaşadıqları (özündən asılı olmayaraq) formalaşdırır, dəyişir. Qısası - düşünürəm ki, zamanın insanda dəyişdirmədiyi təkcə göz rəngi və qan qrupudur".

**Şəhər sakini Mirkamal Kazımzadə:** "Günü-gündən inkişaf edən dünyamızda hər şey dəyişir. Biz də bu dünyada yaşadığımız üçün uyum saxlamağa çalışırıq. Buna görə də dəyişməyə məcbur qalırıq. 7-sində nədirsə 70-də də odur ifadəsi isə bizim ana xüsusiyyətlərimizdən bəhs edir. Hər bir şəxsdə müəyyən xüsusiyyət var ki, onu istəsə belə dəyişə bilməz. Çünki insanları bir-birindən fərqləndirən özəlliklərdən biri də həmən o özünə xas olan xasiyyətləridir".

**Şəhər sakini Ülkər Xəlilli:** "Məncə insanlar dəyişmir. Bəli, insan yeddisində nədirsə yetmişində də odur. Yaşın dəxli yoxdur. Uşaqlıqdan necə böyüyürsə, necə davranırsa, böyüyəndə də elə olur, elə davranır. Xarakter elə formalaşır. Pisdirsə pis, yaxşıdırsa yaxşı olur. Heç kim dəyişmir. Dəyişirəm deyənlər belə bir müddət sonra yenə eyni insan olurlar".

***Ayşən Vəli***

# "Quyruqlu" erməni yalanları...

**Deyirlər, bir yalan var, bir də böyük yalan...amma belə görünür ki, ermənilər yalanın daha bir...quyruqlu "növünü" də icad etməyə nail ola biliblər. Belə ki, artıq onların uydurduqları ləyənlə dolu yalanlar, artıq indi heç "böyük ləyənə" belə sığmır.**

Deməli,.. deyilənə görə, artıq neçə müddətdir ki, ermənilər möhkəm "narahatlıq" keçirirməyə başlayıblar. Amma deyim ki, nəyəsə ümidlərinin olduğunu da gizlətmirlər. Belə ki, bu gün onlar elə həmişə olduğu kimi, bu dəfə də özlərinin haqlı olduqlarını "sübut" etmək üçün hay-həşir salmağa başlayıblar...və təbii ki, öz yalanlarının effektsizliyini anlayaraq, artıq Errmənistandan kənarda da qəyyum axtarışına çıxıblar.

Görən, erməniləri bu qədər pəjmürdə edən, onları bu qədər qorxudan nədir?

Deməli, bu günlərdə Azərbaycanın mədəniyyət naziri Anar Kərimov erməni vandallarından azad edilmiş ərazilərdə "ermənilərin alban dini kilsələrində qoyduğu uydurma izlərin" aradan qaldırılması üçün işçi qrup yaradıldığı barədə açıqlama verib. Əslində, bunun üçün əsaslar da var. Çünki, ermənilərin müvəqqəti işğal etdikləri Azərbaycan torpaqlarında onların xüsusi xaçkar sexlərinin fəaliyyət göstərdiyi barədə çoxları məlumatlı olmalıdır. Qeyd edək ki, bu sexlərdə çalışan ermənilər nəinki təkcə alban dini kilsələrində, hətta azərbaycanlılara məxsus dini ziyarətgahlarda da "erməni izi" qoymaq üçün xüsusi işlər görürdülər.

Təbii ki, onlar bu ərazilərdə, tərəddüdlə də olsa, daimi qalacaqlarını düşünərək sonrakı aqibətlərini, nədənsə, nəzərdən qaçırıdılar.

İndi isə əl-ayağa düşüb "şivən qoparan" ermənilər, Azərbaycan Mədəniyyət Nazirliyinin "erməni mədəni irsinin məhv edilməsi", "albanlaşdırılması" niyyətini "təsdiqləyən" bəyanatla çıxış edirlər. Dünyadan kömək diləyir, onları da öz yalanlarına şərik olmağa çağırırlar.



Təbii ki, ermənilərin bu yalanlarına inanıb, həmişə olduğu kimi, bu dəfə də, dar məcrada da olsa ona qahmar çıxanların olacağı istisna edilmir. Cünki ermənilər bu sahədə, yəni artıq dediyimiz kimi "quyruqlu yalanlar" üydurmaqda böyük təcrübəyə malikdirlər. Təsadüfi deyil ki, hələ ötən əsr bu ərazilərə səyahət edən ingilis səyyahı Vilson ermənilərin "...istənilən bir cəfəngiyatı böyütmək üzrə abırsız dərəcədə mahir" olduqları barədə xəbərdarlıq etmişdi.

Maraqlıdır, bu gün Qarabağdakı tarixi abidələr üzərində aparılacaq tədqiqat işləri, görən, erməniləri niyə belə qorxudur. Təbii ki, cavab məlumdur, bu abidələrin heç birinin erməni və ermənıçiliklə əlaqəsi yoxdur.

Bax, erməniləri qorxudan da budur. İndi onların durub Eçmiədzinin Müqəddəs Anasından, daha nə bilim Yunanıstanın Ermənistandakı sabiq səfiri olmuş Leonidas Xrizantopulosdan "bu abidələrin ermənilərə məxsusluğu ilə bağlı" iqtibaslar gətirmələri ilə deyil axı. Əgər, bu tarixi abidələr, doğrudan da, ermənilərə aiddirsə, onda ermənilərin əndişəməsi üçün heç bir əsas olmamalıdır.

Təbii ki, ermənilər buna əmin deyillər. Deyəsən, belə görünür ki, bu dəfə üzun illər saxtakarlıqla məşğul olan erməni xaçkarların da işi kara gəlməyəcək. Ona görə də ermənilər elə indidən yalan təbliğata start veriblər.

...Yeri gəlmişkən, erməni yalanı ilə bağlı daha bir məlumatı nəzərinizə çatdırmaq istəyirəm.

Beləliklə, ötən gün Ermənistan Respublikasının Statistika Komitəsi 2021-ci ildə Ermənistanın sərhəd-keçid məntəqələri haqqında məlumat dərc edib. Həmən məlumata görə, ötən il ölkənin giriş-çıxış balansı guya 43,874 nəfər olub. Qeyd edək ki, bu ölkənin rəsmi bir idarəsinin təqdim etdiyi, belə demək olarsa, rəsmi bir sənəddir. Bundan əlavə, sən demə, hələ 5 minə yaxın xarici vətəndaş da Ermənistan vətəndaşı olmaq üçün həsrətlə "növbə" gözləyirlər. Əslində, bir dəqiqəlik də olsa, erməni yalanını unudub buna inanmaq istədim, amma...

Beləliklə, erməni iqtisadçı Zaven Hukeyan apardığı araşdırmalara istinad edərək bildirir ki, ötən il ölkənin giriş-çıxış balansı Ermənistan Respublikasının Statistika Komitəsinin təqdim etdiyi kimi 43,874 nəfər yox, 73 571 nəfər olub.

Bundan əlavə, Ermənistana daimi yaşamaq üçün "gələn" 5 minə yaxın xarici vətəndaşın təxminən 4 mindən artığı ikili vətəndaşlığı olanlardır. Yəni onların "daimi yaşamaq üçün Ermənistana gəlmək istəmələri" də yalan xarakter daşıyır. Onlar, sadəcə olaraq, "tarixi vətənlrini" ziyarət edib yenidən geri dönən ermənilərdir.

Gərək ki, yadınızda olar, mövcud Paşinyan hakimiyyəti ilk dövrlərdə müsbət saldo, daimi yaşamaq üçün Ermənistana gələnlər barədə yüksək səslə qışqırdı. Amma indi onlar da elə öz əcdadları kimi, yalan danışmağa başlayıblar...özü də, dediyimiz kimi, lap quyruqlusundan.

***Ağasəf Babayev***

# "Rus sülhməramlıları Azərbaycana aid yükləri yoxlaya bilməz"

**"Ermənilər heç zaman beynəlxalq hüquqa və razılaşmalara əməl etməyib. Onları buna məcbur etmək lazımdır. Vətən müharibəsi də bunu sübut etdi. Yoxsa onlar nə BMT-nin qətnamələrini icra edəcəkdilər, nə də torpaqlarımızı boşaldacaqdılar. 10 noyabr bəyanatına əsasən, rus sülhməramlıları gəldikdən sonra seperatçı qruplar zərərsizləşdirilməli, oradan çıxıb getməli idi. Onlar orada niyə qalır?! Və onlar Azərbaycanla rus sürhməramlıları olan mövqelərdə nə gəzir?!". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Emin Həsənli deyib.**

Onun sözlərinə görə, rus sülhməramlıları Azərbaycana aid yükləri yoxlaya bilməz: "Utanmaz-utanmaz da Azərbaycan yüklərini yoxlayırlar. Hətta yoxlamada polis forması geyinib polis kimi iştirak edirlər. Azərbaycan ərazisində Azərbaycan yüklərini kim yoxlaya bilər?! Onlar ancaq sülh yaratmaq missiyasını yerinə yetirə bilərlər. Maşınları müşahidə etməlidirlər. Azərbaycan dövləti Azərbaycan ərazisində istənilən yükü apara bilər. Hazırda o ərazilərə vətəndaşlar getmir, yəni yük Azərbaycan dövlətinin yüküdür. Azərbaycan ərazisində Azərbaycan dövlətinin yükünün içərisində nə olmağından asılı olmayaraq, heç kim yoxlaya bilməz. Bu məsələlər konkret olaraq çatdırılmalı, ölçülər götürülməlidir ki, rus sülhməramlıları mandata uyğun hərəkət etsinlər. Bununla birlikdə, artıq bir neçə dəfədir ki, onlar mandatından kənar addım atıblar. Haqlı olaraq, bu, Azərbaycan xalqının böyük narazılıqlarına səbəb olub. Bir neçə dəfə də Azərbaycanın rəsmi qurumları onlara etirazlarını bildiriblər, amma hələki kifayət qədər nəticə çıxarılmayıb. Onlar Ermənistandan Azərbaycana gələn yükləri yoxlamalı, bu işi Azərbaycan dövləti ilə bərabər aparmalıdırlar. Bu hadisələr təkrarlanarsa, Azərbaycan həmin ərazidə antiterror əməliyyatı keçirə bilər və keçirməlidir də".



Emin Həsənli sözlərinə belə davam edib: "Orada kimlərin yaşadığını bilmək üçün pasport əməliyyatı keçirilməlidir: "1991-ci ilə qədər olan Azərbaycan vətəndaşlarının arxivi dövlətdə var. Kimdir onlar? Övladları dünyaya gəlibsə onlar kimdir? Bunun sayı dəqiq müəyyənləşdirilməlidir. Kim orada yaşamaq istəyirsə, yaşasın. Yaşamaq istəmirsə, 30-40 km o tərəfə rədd olub Ermənistanda yaşasın, öz işləridir. Bu məsələ birdəfəlik aydınlaşdırılmalıdır. Orada əlisilahlı bir nəfər də qalmamalıdır. Rusiya sülhməramlıları bu prosesi tənzimləyir. Ondan sonrakı müddətdə isə Azərbaycanın öz hüquq, mühafizə orqanları bu məsələni tənzimləyəcək. Bunun başqa bir tərəfi yoxdur.

Bu hallar davam edəcəksə, Azərbaycan dövləti ölçü götürməlidir. Yoxsa hər dəfə onlar atəşkəsi pozacaq, Azərbaycan silahlı qüvvələrinin üstünə qumbara atacaq, sonra o terrorçular Azərbaycana təhvil verilməyəcək. Guya orada onlara ölçü götürülür. Hansı ölçü götürülür?! Kim ölçü götürür?! Hansı dövlətin hüquq, mühafizə orqanları o işi apara bilər?! Azərbaycan ərazisində cinayət törədilibsə, o cinayəti törədənlər Azərbaycan hüquq, mühafizə orqanlarına təhvil verməli, həmin işi Azərbaycan dövləti aparmalıdır. Bu, hüququn təməl şərtlərindən biridir. Buna əməl edilməyəcəksə, Azərbaycan, təbii ki, bu məsələlərə yenidən baxacaq. Hər kəs beynəlxalq hüququ, Azərbaycanın qanunlarına, konstitusiyasına hörmət etməlidir. Necə ki, beynəlxalq hüquqla Rusiya ərazisində Rusiyanın qanunları, Amerika ərazisində Amerikanın qanunları keçir, Azərbaycan dövlətində də sülhməramlılar da daxil olmaqla hər kəs Azərbaycan dövlətinin qanunlarına əməl etməlidir. Unutmaq olmaz ki, sülhməramlılar Azərbaycan ərazisindədilər və Azərbaycan dövlətinin qanunlarına əməl etməkdən başqa yolları yoxdur".

***Ayşən Vəli***

# Dayə seçərkən nələrə diqqət edilməlidir?

## SOSİOLOQ AÇIQLADI



"Bu problemlər ondan doğur ki, biz hələ sosial sahələrdə lazımlı və vacib olan işləri görmürük. Məsələn, bölgələrin sosial-iqtisadi inkişafı ilə bağlı fəaliyyət proqramları, yol xəritələri hazırlanır, həyata keçirilir. Bütün bunların nəticəsini də görürük. Amma sosial sahələrdə də bu işlər görülməlidir. Təəssüf ki, o işlərə başlamamışıq. Ona görə də belə məsələlər baş verir. Təkcə dayələrlə deyil, elə xeyli ailələrdə, cəmiyyətimizdə buna oxşar problemlər var. Onlar hamısı bir-biri ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.

Onun sözlərinə görə, bu məsələdə əhaliyə kömək etmək lazımdır: "Xüsusi bürolar olmalıdır və təşkilatlar yaradıla bilər. Bunu həm dövlət, həm ictimai təşkilatlar, həm də Qeyri-Hökumət Təşkilatları da yarada bilər. Orada dayəlik öyrənmək istəyən adamlar 3 aylıq kurs keçə bilər. O 3 aylıq kurs nəticəsində onlara uşaqlara baxmaq, dayəlik etməyin bütün sirlərini öyrənə və sertifikat ala bilərlər".

Əhməd Qəşəmoğlu sözlərinə belə davam edib: "İnsanlar evə dayə dəvət edəndə küçədən təsadüf adamı seçməməlidirlər. Büroya zəng edilməli, büro ilə müqavilə bağlanmalı və o bürodan onların tövsiyəsi ilə dayəni qəbul edərlər. Çünki küçədən qəbul olunmuş dayə təhlükəlidir. Onun cinayətkar olmadığı, hər hansı keçici xəstəliyi və s. məlum deyil. Amma o 3 ay kurslara gedib sertifikat aldıqdan sonra təşkilat onu yaxından tanıyacaq, maraqlanacaq ki, bu adam kimdir".

Əhməd Qəşəmoğlu sözlərinə belə davam edib: "Amma bəlkə bunda bir şizofreniya xəstəliyi var. Elə adamlar birdən qızışanda öz uşaqlarını da boğurlar. Bu, ona görə çox təhlükəlidir. Beləliklə, cəmiyyətimizdə indi xeyli təşkilatlar yaranmalıdır. Bu, gələcəyin işidir. Amma bu gün dayələri evə qəbul edəndə onlar haqqında çox geniş məlumat əldə etmək lazımdır. Əvvəl harada çalışıb, nə işin sahibidir, özü ilə ətraflı söhbət etmək olar, evini-eşiyini tanımaq olar. Yəni, təsadüf adama elə qapıdan girdi bir uşağı tapşırmaq olmaz.

Valideynlər xeyli dərəcədə diqqətli olmalıdır. O dayənin bütün xarakteri barədə gücləri çatan qədər məlumat əldə etməlidirlər. Amma dediyim kimi, tezliklə mənim təklif etdiyim təşkilatlar yaranmalıdır. Təəssüf ki, 15 ildir mən bunu təklif edirəm. Bu təşkilatlar hələ yaranmayıb. O təşkilatlarda müxtəlif sahələrdə insanlar hazırlana bilər. Orada bağbanlar, sürücülər, evdə qocalara, xəstələrə baxan insanlar hazırlana bilər.

Dayələrə təcili yardım məsələsi ilə bağlı bir çox şeyləri də öyrətmək lazımdır. Çünki uşaqdır, evdə birdən boğula bilir, dili boğazında qatlanır, belə şeylər olur nə isə yanğın olur, üstünə su tökülür. Dayə təcili olaraq o işlərin hamısını bilməlidir. Yəni, məlahətli səslə danışan bir adamdırsa, o demək deyil ki, ondan dayə çıxar. Ona görə bu istiqamətdə görüləsi işlərimiz çoxdur".

***Ayşən Vəli***

# Rusiyalı ekspertlər: İrəvan niyə köhnə valı yenidən oxudur



**Ermənistanda baş nazirin hakim "Vətəndaş sazişi" partiyası yüksək texnologiyalar sənayesi naziri Vaaqn Xaçatryanı ölkə prezidentliyinə namizəd kimi irəli sürüb. Maraqlıdır ki, Xaçatryan Ermənistanın 1-ci prezidenti Levon Ter-Petrosyanın keçmiş müşaviri və onun rəhbərlik etdiyi Erməni Milli Konqresi partiyasının üzvüdür. O, Azərbaycan və Ermənistan arasında sülhün lehinə bəyanatları ilə tanınır. Namizədliyini irəli sürdükdən sonra Xaçatryan bəyan edib ki, "qonşularla yalnız sülh şəraitində yaşamaq mümkündür və lazımdır, hamımız bilməliyik ki, sülh inkişafın və həyatın yeganə formasıdır".**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*













ŞƏRHLƏR

Baş nazir Nikol Paşinyanın qeyd etdiyi kimi, Ermənistanda prezident seçkiləri mart ayında keçiriləcək. Paşinyan bildirib ki, Ermənistan və Azərbaycan Rusiyanın vasitəçiliyi ilə dəmir yolunun tikintisinə və bərpasına başlanmağa çox yaxındırlar, bu isə regionun kommunikasiyalarının açılması deməkdir.

Xatırladaq ki, bir neçə gün əvvəl Rusiya baş nazirinin müavini Aleksey Overçuk və Rusiya Dəmir Yollarının rəhbəri Oleq Belozerov İrəvana səfər ediblər. Və uzun fasilədən sonra İrəvan-İstanbul arasında ilk aviareys açılıb.

Ermənistanın Azərbaycanla sülhə doğru bu açıq-aşkar dəyişiklikləri fonunda bir neçə "amma" var. Bir gün əvvəl Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan İrəvanda avstriyalı həmkarı Aleksandr Şallenberqlə danışıqların yekunlarına dair mətbuat konfransında bir daha bəyan edib ki, Azərbaycanla sülh müqaviləsinin imzalanması Qarabağ münaqişəsinin həlli ilə əlaqələndirilməlidir. Bunu dedikdə rəsmi İrəvan Qarabağın statusunu və orada yaşayan erməni əhalinin qondarma "öz müqəddəratını təyinetmə" məsələsini nəzərdə tutur.

Erməni diplomatiyasının rəhbəri bəyan edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri Qarabağ probleminin siyasi həllinə nail olmaq üçün yaradılmış və müstəsna səlahiyyətlərə malik formatdır.

"Hələ həll yolu tapılmayıb və biz bu formatda danışıqları davam etdirməliyik. Və onu həll etməyin yollarından biri ümumi sülh müqaviləsinin parametrlərini müəyyənləşdirmək, onu işləyib hazırlamaq və imzalamaqdır. Həmsədrlər tərəfindən hazırlanmış nizamlanma prinsiplərini, xüsusən də "Dağlıq Qarabağ xalqının" öz müqəddəratını təyinetmə hüquqnu yadda saxlamaq vacibdir. Digər prinsip- güc tətbiq etməmək 2020-ci ildə müharibə zamanı kobud şəkildə pozulub".

Beləliklə, rəsmi İrəvanın nümayəndəsi növbəti dəfə Ermənistanı mahiyyət etibarilə vəziyyətin qurbanı, Azərbaycanı isə işğalçı kimi təqdim etməyə çalışaraq, Ermənistanın 1990-cı illərin əvvəllərində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal edərək güc tətbiq etməmək prinsipini pozduğunu qeyd etməyi "unutmuşdur".

Bir tərəfdən son dərəcə müsbət ritorika, digər tərəfdən isə bir daha sülh müqaviləsi ilə Qarabağın statusu arasında əlaqə. Ermənistan-Azərbaycan nizamlanmasının hara getdiyini rusiyalı ekspertlər "Moskva-Baku" portalına şərh ediblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

Politoloq, millətlərarası münaqişələr üzrə ekspert Yevgeni Mixaylov:

- Respublikanın 1-ci prezidenti Ter-Petrosyanın keçmiş müşaviri Vaaqn Xaçatryanın hakim "Vətəndaş sazişi" partiyası tərəfindən Ermənistan prezidentliyinə namizəd kimi irəli sürülməsini Ermənistan-Azərbaycan münasibətlərinin inkişafı üçün müsbət tendensiya kimi qiymətləndirirəm, çünki Ter-Petrosyan dəfələrlə birbaşa deyib ki, Ermənistan Azərbaycanla konsensus tapmalıdır.

Ter-Petrosyan heç vaxt Bakı ilə bağlı mənfi ifadələri ilə xüsusi seçilməyib. O, kifayət qədər mötədil siyasətçi idi və bir çox cəhətdən uğursuz oldu. İndi Ermənistan prezidenti postuna onunla birgə işləmiş və onu dəstəkləyən şəxs təyin olunarsa, bu, şübhəsiz ki, Ermənistan-Azərbaycan münasibətləri üçün, danışıqlar prosesi üçün isə şübhəsiz üstünlük olacaq və bu, sülh müqaviləsinin imzalanması ilə başa çatacaq.

Bu siyasi fiqur prezident seçilsə, Ermənistan cəmiyyətinin özündə də reaksiyanın necə olacağını görmək lazımdır.

Etiraf etməmək mümkün deyil ki, bu gün biz Ermənistan tərəfindən Azərbaycan və Türkiyə ilə sülh yolunda müsbət addımlar görürük.

O cümlədən, bir neçə gün əvvəl İrəvan-İstanbul arasında aviareys açılıb. Paşinyan Azərbaycanla dəmir yolu layihəsinin icrasına başlamağa hazır olduğunu bəyan edir.

Bütün bunlar Azərbaycan, Ermənistan, Türkiyənin regionda əməkdaşlıq və sülh vektoru olması üçün bütün səylərini əsirgəməyən Rusiya Federasiyasının fəal iştirakı ilə baş verir.

Ardı Səh. 15

# Rusiyalı ekspertlər: İrəvan niyə köhnə valı yenidən oxudur



Əvvəli Səh. 14

Ermənistanın siyasətində indiki mərhələdə biz mənfi cəhətlərdən çox müsbət cəhətlər görürük. Bunlar artıq kiçik addımlar deyil, dialoqun mümkünlüyü ilə bağlı əhəmiyyətli mesajlardır.

Rusiya isə bu sahədə bütün məsələləri addım-addım sakit və sülh yolu ilə həll edir.

2020-ci il noyabrın 9-da Rusiya və Azərbaycan liderləri ilə üçtərəfli bəyanat imzalayan Paşinyan onun icrasına görə məsuliyyəti öz üzərinə götürüb. Söz yox ki, bu gün Ermənistanda dövlətçilik kifayət qədər zəifdir. Paşinyan bu üçtərəfli bəyanatı imzalamaqla Rusiyanın köməyi ilə Ermənistan dövlətçiliyini xilas etdi. Onu revanşistlər məzəmmət edirlər, lakin bu gün əsas odur ki, o, əsrlər boyu aşılanmış və bu günə qədər Ermənistanın revanşist düşüncəli əhalisi arasında yayılmaqda davam edən mifologiyaları qəbul etməyən yeni erməni cəmiyyəti yaratmalıdır. Qonşulara nifrətə əsaslanan erməni dövlətçiliyinin bütün strukturunu, daxilində erməni millətinin böyüklüyünün tərifləndiyi sehaxronizm ideologiyasını sındırmalıdır.

Ermənistanın siyasi məkanı Paşinyanın ətrafından onun ideyalarını tam şəkildə bölüşəcək adamlarla dolu olanda, o, Ermənistan cəmiyyətinin strukturunun yenidən qurulmasını başa çatdıracaq. Bu, Rusiya üçün də vacibdir, çünki Moskva Ermənistana yenidən erməni cəmiyyətini silkələməyə başlayacaq liderin gəlişində maraqlı deyil.

Eyni zamanda, görünən odur ki, bu gün erməni diasporu danışıqlar prosesinin sabitliyinin pozulmasında iştirak etməyə çalışır, həm də Rusiya ərazisində Azərbaycana qarşı təxribatlar təşkil etməyə çalışır. Mən bu yaxınlarda Moskvada faşist əlaltısı Qaregin Nijde haqqında film nümayiş etdirmək cəhdini nəzərdə tuturam. Yeri gəlmişkən, həmin günlərdə Voronejdə Ermənistan ordusunun şərəfinə konsert keçirmək cəhdinin qarşısı alınıb. Niyə bəzi qüvvələr kollaborator Nijdenin ideologiyasını Rusiya ərazisinə köçürməyə çalışırlar? Erməni diasporunu hazır vəziyyətdə saxlamaq. Rusiya cəmiyyətinə öz "qəhrəmanlarını"- faşist əlaltıları sırımaq üçün.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Azərbaycanla sülh müqaviləsinin yalnız Qarabağın statusu, orada yaşayan ermənilərin "öz müqəddəratını təyin etmələri" müəyyən olunarsa mümkün ola biləcəyi barədə mütəmadi bəyanatlarına gəlincə, mən bu vəziyyəti belə müəyyən edərdim: "bir tərəf digərinin nə etdiyini bilmir". Paşinyan sadəcə olaraq yenə bir neçə istiqamətdə oynayır. O, gülümsəyəcək, amma öz xeyrinə bir şey etməyə çalışacaq. Bəs nəsə baş versə, Rusiya dünya miqyasında hansısa kontekstdə hardasa öz mövqelərində güzəştə yol versə və Qarabağ nizamlanmasına bu və ya digər nöqteyi-nəzərdən təsiri zəifləsə? Amma Rusiyanın indi kifayət qədər resursu var, o, dünyadakı bütün təhdidlərə dözür və adekvat cavab verir.

Ermənistan həmişə belə olubkim güclüdürsə, biz də onunla olacağıq. O, bir şeydə zəiflik görür və xəritəni çevirməyə çalışır. Ancaq bu xəritəni daha genişləndirmək mümkün deyil. Qarabağın statusu ilə bağlı bütün bu arqumentlər təbii ki, ənənəvi xarakter daşıyır. Belə mübahisələr həmişə olub. Erməni tərəfi isə, inanıram ki, bu məsələni həmişə təbliğ edəcək.

Amma Azərbaycan prezidenti İlham Əliyev nüfuzlu siyasətçidir, dedi ki, Qarabağın hansısa statusundan söhbət gedə bilməz. Qarabağ erməniləri Azərbaycan qanunlarına görə Azərbaycanın tərkibində yaşaya bilərlər. Amma heç bir ikinci erməni dövlətinə, hətta kiçik bir dövlətə heç kim icazə verməyəcək. Əks halda, bu, qanunsuz, daimi sabitliyi pozan anklav olacaq. İndi də Paşinyan Ermənistanın hansısa maraqlarını müdafiə etdiyini göstərməyə çalışır. O, həm dünya, həm revanşistlər, həm Rusiya, həm də Qərb üçün oynamağa çalışır. Əks halda, inandığı kimi, gücünü itirəcək. Mənə elə gəlir ki, bütün bunlar, o cümlədən İkinci Qarabağ müharibəsindən sonra prosesdən kənarda qalan Qərb dövlətlərinin oyununun təzahürləridir. Amma Ermənistan kimdən nəsə almaq istəyir.

Rusiya, təbii ki, sülhməramlı kimi lider mövqeyindən əl çəkməyəcək. Azərbaycanla sülh sazişlərinin həyata keçirilməsi ilə bağlı açıq-aydın bəyanatlar fonunda Ermənistan zaman-zaman vəziyyəti sarsıtmaqda davam edir. Düşünürəm: bu işə yaramayacaq. Bəli, işləməyəcək! Bütün bu status bəyanatlarını belə qəbul edirəm.

Eyni zamanda, fikrimcə, indi informasiya gündəmində Ermənistanın Azərbaycanla sülhə olan müsbət meyilləri mənfi cəhətləri üstələyir. Hələlik bu prosesləri izləməyə dəyər.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın dediyi kimi, Azərbaycanın guya Ermənistanın sərhəddə təhlükəsizliklə bağlı təkliflər paketindən imtina etməsinə gəlincə, burada deyə bilərik: təşəbbüs açıq şəkildə Rusiyadan gəlməyib. O, vasitəçi kimi fəaliyyət göstərib. Qalan hər şey ermənilərin istəyidir. Azərbaycanın necə reaksiya verməsi onun öz haqqıdır. Və sonra dialoq məsələsi var. Rusiya deyir ki, tez bir zamanda delimitasiya komissiyası yaratmaq lazımdır. Prinsipcə heç bir ilkin şərt yoxdur. Ermənistan ilkin şərtlər qoyur.

Azərbaycan illərdir təxribatlara, aldatmalara, təhqirlərə, vədlərə dözüb. Prezident Əliyevin bu yaxınlarda dediyi kimi, Ermənistan gözlənilməz qonşudur və indi sülhdən danışırsa, bir müddətdən sonra nə baş verəcəyi məlum deyil.

Məncə, indi münasibətlərdə müsbət hərəkətləri gözləmək lazımdır. Yavaş-yavaş irəliləməliyik. Nəqliyyat dəhlizi- Zəngəzur dəhlizi tikilsin. Bu müsbətdir. Və biz görəcəyik. Əsas odur ki, hərəkət var.

Siyasi və İqtisadi Kommunikasiyalar Agentliyinin aparıcı analitiki Mixail Neyjmakov:

- Ermənistan prezidentinin səlahiyyətləri, o cümlədən xarici siyasət sahəsində çox məhduddur. Düzdür, Armen Sarkisyan bu vəzifəni tutarkən beynəlxalq əlaqələr sahəsində kifayət qədər fəal idi ki, bu da digər məsələlərlə yanaşı, bu vəzifəni tutmazdan əvvəl əldə etdiyi diplomatik və xarici iqtisadi fəaliyyət təcrübəsi ilə bağlıdır.

Bu gün erməni ekspertlər yazır ki, təmkinlilik Ermənistanın hakim fraksiyasından olan prezidentliyə namizəd Vaaqn Xaçatryanın Robert Köçəryan və Serj Sarkisyanın prezidentliyi dövründə müxalifət tərəfdarı kimi nümayiş etdirdiyi mühüm keyfiyyətlərdən biridir. Eyni zamanda, ekspert kimi şərhlərində Xaçatryan İrəvanla Ankara arasında dialoq qurmaq cəhdlərindən (o cümlədən, Türkiyənin Avrasiya İqtisadi İttifaqına hipotetik daxil olması halında) kifayət qədər müsbət danışıb və hesab edir ki, iqtisadi cəhətdən Ermənistanın digər ictimai xadimləri tərəfindən tez-tez qeyd olunan Ermənistan Türkiyə sərhədinin açılması halında risklərdən qorxmaq lazım deyil.

Qeyd etmək olar ki, keçmiş prezident Armen Sarkisyan da prezidentlikdən getməzdən bir müddət əvvəl verdiyi müsahibədə Ermənistan-Türkiyə dialoqundan da kifayət qədər müsbət danışmışdı ("indiki halda danışmaqdan başqa yol da yoxdur"), hərçənd Bakı ilə İrəvan arasında danışıqların perspektivləri ilə bağlı bir qədər ehtiyatla ("Ümid edirəm ki, bu dəfə Azərbaycan və Ermənistan kompromislər yolu ilə sülhü bərqərar edə biləcəklər, lakin bu, asan deyil").

Hər halda, Vaaqn Xaçatryan prezident seçildikdən sonra yaxın gələcəkdə İrəvanın həm Ankara, həm də Bakı ilə danışıqlarına kifayət qədər müsbət qiymətlər gözlənilməlidir. Eyni zamanda, Nikol Paşinyanın komandası ilə işinin əlverişli təcrübəsini nəzərə alsaq, çox güman ki, Xaçatryan prezident olduqdan sonra belə danışıqlara, o cümlədən Ermənistan rəhbərliyinin digər fiqurlarının birbaşa iştirak etdiyi situasiyalarda iştirak edəcək. Belə diplomatik missiyalara cəlb edilənlər (onlar daha çox ictimai rəyə güvənməli olurlar) onları daxili siyasi risklərlə təhdid edərdilər.

Ermənistanın baş nazirinin Azərbaycanla dəmir yolunun tikintisinə başlamağa hazır olması ilə bağlı müsbət bəyanatlarına gəlincə, hələ 2021-ci ilin sonunda Azərbaycan və Ermənistan arasında nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasına dair danışıqlarda nəzərəçarpacaq praktiki irəliləyişin ola biləcəyinə dair əlamətlər var idi. Xüsusilə, bunu Rusiya Federasiyasının Sənaye və Ticarət naziri Denis Manturovun dekabrda Ermənistanın İqtisadiyyat naziri Vahan Kerobyan ilə Dubayda keçirdiyi görüşü göstərir, onun çərçivəsində "Dəmir yolunun inteqrasiyası imkanları, Rusiya və Ermənistan sistemləri" müzakirə olunub. Bölgədə kommunikasiyaların qarşısının alınması üçün yeni nəzərəçarpacaq addımlar atıldığı təqdirdə, bu məsələ daha da aktuallaşacaq. Rusiya isə belə bir blokun açılmasında maraqlıdır və bu məsələdə nəticə əldə etmək üçün səy göstərir.

Eyni zamanda, bunun fonunda Qarabağın statusu məsələsinin rəsmi İrəvanın irəli sürməsindən danışırıqsa, o zaman ATƏT-in Minsk qrupu formatında danışıqların intensivləşdirilməsinin zəruriliyi ilə bağlı bəyanatlar İrəvanın ənənəvi mövqeyidir. 2020-ci ilin noyabr-dekabr aylarının sonunda Ermənistandan olan siyasətçilər Minsk Qrupunun himayəsi altında danışıqları intensivləşdirməyə çağırıblar. Bu, 2020-ci ilin noyabrında təqdim olunan "Paşinyan yol xəritəsi"ndə öz əksini tapıb. İstənilən halda Ermənistan rəsmiləri Qarabağın statusu məsələsini gündəmə gətirməli olacaqlar, sadəcə, ona görə ki, buna məhəl qoymamaq onları müxalifətin qınaq obyektinə çevirəcək.

Eyni zamanda, fikrimcə, yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında nəqliyyat kommunikasiyalarının açılması məsələsində irəliləyiş realdırsa, Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması gələcəyin işidir. Və burada Ermənistan rəhbərliyinin mövqeyinə əlavə təsir göstərə biləcək daxili siyasi amilləri də nəzərdən keçirməyə dəyər. Dünya təcrübəsinin göstərdiyi kimi, xarici siyasətdə böyük tələtümlər baş verdiyi andan bir il və ya daha çox vaxt keçdikdən sonra bu hadisələrin ən az uğur qazandığı ölkə əhalisinin sarsıntısı daha aktiv şəkildə azalmağa başlayır. Bu, yaxın gələcəkdə Bakı ilə İrəvan arasında danışıqlar üçün daha problemli fon formalaşdıran əlavə amillərdən birinə çevrilə bilər.

Əgər Azərbaycanın Ermənistanın bir neçə həftə əvvəl Moskvanın vasitəçiliyi ilə Bakıya göndərdiyi sərhəddə təhlükəsizliklə bağlı təkliflərini rədd etməsindən danışsaq, o zaman dünya təcrübəsini yada salmaq olarsərhədlərin delimitasiyası ilə bağlı danışıqlar çox uzana bilər. Aydındır ki, Azərbaycan hələ də bu məsələ ilə bağlı məqbul təkliflərə nail olmayıb. Xarakterik odur ki, Ermənistan hökumətinin qoşunların Azərbaycandan çıxarılmasına dair güzgü təklifləri daxili siyasi opponentlər tərəfindən onun tənqidi üçün bəhanə oldu.

Çox güman ki, sərhədin delimitasiyası ilə bağlı danışıqların intensivləşdirilməsi cəhdləri yaxın vaxtlarda, o cümlədən Rusiyadan da olacaq. Lakin Rusiya rəsmilərinin (məsələn, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun) 2022-ci ilin yanvarında Bakı ilə İrəvan arasında bu məsələ ilə bağlı fikir ayrılıqlarının qeyd edilməsi onu göstərir ki, Moskva indi yaxın gələcəkdə bu cür danışıqların perspektivlərini çox ehtiyatla dəyərləndirir.

***Tərcümə - Elçin Bayramlı***

# "Xocalı faciəsi bir xalq, yaxud millətin məsələsi deyil"

"30-cu il dönümünü yad etməyə hazırlaşdığımız Xocalı faciəsi bir xalq yaxud, millətin məsələsi deyil, bəşəri faciədir. Soyqırım əlamətləri ilə yanaşı, sülh və insanlıq əleyhinə cinayətlərin məcmusunun törədildiyi bu faciə insan haqlarının beynəlxalq hüququn prioritetinə çevrildiyi bir dövrdə, hər kəsin gözü önündə baş versə də və hələ də əsl beynəlxalq hüquqi qiymətini almadığı üçün bəşəriyyət adına utancdır.

Təəssüf doğuran haldır ki, hansısa sosial media fəalının törətdiyi və cinayət tərkibinin olması sübut olunmuş əməli siyasi məhbus şousuna çevirən "həssas" hüquq-müdafiə təşkilatları beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun 366-cı alayının iştirakı ilə Xocalıda dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutulmasına, 106 qadın, 63 uşaq, 70 qoca olmaqla, 613 şəxs, məhz azərbaycanlı olduğuna görə xüsusi qəddarlıqla qətlə yetirilməsinə 30 ildir reaksiya vermir". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün həyata keçirilən tədbirlər, xüsusən, 14 ildir ki başlanan "Xocalıya ədalət" beynəlxalq kampaniyası nəticəsində hazırda, Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir: "Heç şübhəsiz ki, soyqırımın törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır. Lakin, təəssüflər olsun ki, cinayətin təhrikçi, təşkilatçı və icraçılarından biri olan Serjik Sarkisyanın Avropa mediasına şəxsi etirafına baxmayaraq hüququn aliliyindən danışanlar onun və Serjikin digər tayı Koçaryanın vəhşiliyinə hələ də, hərəkətsizlik göstərirlər. Hərəkətsizlik özü də əməldir və bu mənada əminliklə demək olar ki, bu gün danışmayan, görməyən, eşitməyən "üç meymun"u xatırladan hüquq-müdafiə təşkilatları, habelə, Xocalı



faciəsini hələ tanımayan böyük dövlətlər bu cinayətin ortağı olaraq qalırlar.

Bu gün kimsə iddia edə bilər ki, hadisələr keçmişdə qalıb, irəli baxmaq lazımdır, əlbəttə, düşmənçilik daimi ola bilməz, lakin, əgər erməni xislətini dəyişmirsə, biz nə edə bilərik? Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zaman keçsə də, erməni dəyişməyib, zamanla sadəcə metodlar dəyişib, mülki əhaliyə qarşı cinayətlər Ermənistanın daim dövlət siyasəti olaraq qalıb.

Əlbəttə, əvvəldə də qeyd etdiyim kimi, bu, yalnız Azərbaycana aid məsələ deyil, 613 mülki insanın amansızlıqla qətli bəşəri faciədir və bu faciəyə susmaq bəşəri cinayətə göz yummaqdır.

Azərbaycanın özü zatən öz qisasını almış və bundan sonra da ala biləcək gücdür. Prezident İlham Əliyevin "Xocalı soyqırımının otuzuncu ildönümü haqqında" Sərəncamın məzmununda da ifadə edildiyi kimi 44 günlük savaşdakı zəfərlə Azərbaycan xalqı əzəli torpaqlarını işğaldan qurtararaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirməklə bərabər, həm də çoxsaylı faciələrin, o cümlədən, Xocalı soyqırımı qurbanlarının qisasını almaqla tarixi ədaləti bərpa etmiş oldu".

"Xocalı faciəsi bir xalq, yaxud millətin məsələsi deyil"

***Ayşən Vəli***

# Zidan Ronaldonu da PSJ-yə aparır



**"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo PSJ-də Zinəddin Zidanla yenidən bir araya gələ bilər. Bu barədə "Marca" nəşri məlumat yayıb.**

**Bildirilib ki, fransalı mütəxəssis bu mövsümün sonunda Paris təmsilçisini çalışdırmağa yaxındır. Zidanın klub qarşısında qoyduğu ilk tələb 2016-2018-ci illərdə "Real"da birlikdə çalışdığı Ronaldonu transfer etməkdir.**

Portuqaliyalı oyunçu 2021-ci ilin avqustunun sonunda "Yuventus"dan "Mançester Yunayted"ə keçib və bu mövsüm komandanın heyətində 24 oyunda 14 qol vurub, 3 qolun ötürməsini verib.

Zinəddin Zidan hazırda klubsuzdur. O, 2016-cı ilin yanvarından 2018-ci ilin mayına kimi "Real"ı çalışdırıb. 2019-cu ilin martında fransız mütəxəssis "kral klubu"na qayıdıb və 2020/21 mövsümünün sonunda "Real"ı tərk edib.

## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

## Tərdən sirkə iyi gəlirsə... Təhlükəli simptom

**Tərin əsas hissəsini su təşkil edir. Bu səbəbdən tər iysizdir. Lakin dəriyə düşəndən sonra tər burada yaşayan mikroblar, toz və s. ilə əlaqəyə girir və bu da tərin iyini dəyişir. Saglamolun.az xəbər verir ki, gigiyena qaydalarının pozulması, çoxlu turş, qızardılmış, ədviyyatlı qidaların qəbulu tər iyinin dəyişilməsinə, daha kəskin olmasına səbəb olur.**

Lakin bəzən tər iyinin dəyişilməsi (sirkə, aseton, xara olmuş balıq iyi və s.) hər hansı xəstəliyin simptomu da ola bilər. Belə ki, tərdən gələn turş, sirkə iyi bu kimi xəstəliklərin simptomu kimi meydana çıxa bilər:

- Şəkərli diabet. Tər iyinin dəyişilməsindən əlavə insanda səbəbsiz susuzluq, sidik ifrazının artması, yaraların gec sağalması kimi simptomlar əmələ gəlir.
- Qadınlarda mastopatiya zamanı tərdən sirkə iyi gəlir. Süd vəzilərdə ağrılar, bərkimiş sahələr varsa, mütləq mammoloqa müraciət edin.
- Vərəm xəstəliyi. Zəiflik, tez yorulma, gecə saatlarında güclü tərləmə vərəm xəstəliyinə işarə edə bilər.



- Qalxanvari vəzinin fəaliyyətində pozulmalar.
- D və B qrupu vitaminlərinin çatışmazlığı.
- Uşaqlarda raxitin inkişafı zamanı tərin iyi dəyişilir, turş olur. Buna vaxtında fikir vermək lazımdır. Həkim uşağa D vitamini təyin edə bilər.

*Saglamolun.Az*

## Həkim-terapevt: Az su içmək kökəlmə yaradır!



**Mütəxəssislər deyirlər ki, suyun insan orqanizminə 50-dən çox faydası var. Gün ərzində 2 litr maye qəbul edilməsi isə vacib məsələlərdən biridir.**

Su qanda, sümükdə və beyində optimal nəm səviyyəni saxlamağa kömək edir, onurğa və beynin fəaliyyəti üçün vacibdir. Çox su içmək oynaq ağrılarının qarşısını alır, həzm prosesini sürətləndirir, həm də qidanın qəbulunu, toksinlərin və şlakların orqanizmdən xaric olmasını təmin edir.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: "Hər səhər yuxudan oyanan kimi 1 və ya 2 stəkan, hər dəfə yeməkdən əvvəl yarım stəkan su qəbul edilməsi çox faydalıdır. Suyun qidalanmadan yarım saat əvvəl və qidalanmadan 1 saat sonra qəbul edilməsi məsləhətdir. Təəssüf ki, əksər hallarda qidadan əvvəl su qəbul edilmədiyinə görə, qidadan sonra tez susuzlaşma baş verir".

Acanda çox yeməmək olar. Amma susayanda mütləq su içmək lazımdır. Əks halda bədənin həddindən artıq su itirməsi halında toxuma boşluqları, oynaqlar, böyrəklər və qan-raciyərdə problemlər yarana bilər.

"Su qəbizlikdən əziyyət çəkənlər və həzm problemi olanlar üçün çox əhəmiyyətlidir. Orqanizmə kifayət qədər su daxil olmayanda kökəlmə baş verir, çünki orqanizmdə gedən bütün proseslərdə su böyük rol oynayır",- deyə həkim-terapevt əlavə edib.

Su bütün qida, vitamin və mineralların təməlidir. Soyuq aylarda olmasa da, havanın isti keçdiyi günlərdə çoxlu su qəbul etmək lazımdır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600